AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpnews.az
www.olimpiyadunyasi.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
*№ 28 (1373), 3 - 9 iyul 2018-ci il*
*Qəzet 2001-ci ildən çıxır.*



## Üzgüçülük estafetinin qalibləri mükafatlandırılıb

Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 29-da Böyük Zirə adası - Dənizkənarı Milli Park marşrutu üzrə təşkil olunan üzgüçülük estafetinin qalibləri mükafatlandırılıb.

Mükafatlandırma mərasimində gənclər və idman naziri Azad Rəhimov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant Mədət Quliyev, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə və Xəzər İsayev, MOK baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, Hərbi Dəniz Qüvvələrinin Komandanı vəzifəsini icra edən, 1-ci dərəcəli kapitan Zaur Hümmətov, Dənizkənarı Bulvar İdarəsinin rəisi İlqar Mustafayev, Dövlət Dəniz Agentliyinin sədri Qüdrət Qurbanov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Olimpiya çempionları Namiq Abdullayev, Zemfira Meftaxetdinova, Elnur Məmmədli və güc strukturlarının idman cəmiyyətlərinin rəhbərləri iştirak ediblər.

Yarışın açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Üzgüçülük estafetində Müdafiə, Fövqəladə Hallar və Daxili İşlər nazirliklərini, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərini, Dövlət Gömrük Komitəsini və Bakı Su İdmanı Sarayını təmsil edən komandaların heyətində ümumilikdə 100-dən çox idmançı qələbə uğrunda mübarizə aparıb. Yarış iştirakçıları Böyük Zirə adasından Dənizkənarı Milli Park ərazisindəki Saat Qülləsinin olduğu istiqamətədək 10 kilometrədək məsafəni 3 saatadək qət ediblər. Gərgin idman mübarizəsinin nəticələrinə əsasən, Daxili İşlər Nazirliyinin komandası yarışın qalibi olub. Bakı Su İdmanı Sarayının təmsilçiləri ikinci, Dövlət Sərhəd Xidmətinin təmsilçiləri isə üçüncü yerdə qərarlaşıblar.

Qalib komandaların üzvləri diplom, medal və kuboklarla təltif edilib.

## Avropa birinciliyində iki medal qazanıldı

Bosniya və Hersoqovinanın Sarayevo şəhərində yeniyetmə cüdoçular arasında Avropa birinciliyi keçirilib. Yarışın ilk günü Azərbaycan cüdoçuları üçün uğurlu olub. Millimizin iki üzvü qitə birinciliyində fəxri kürsüyə qalxıb.



60 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Mətin Rzazadə gümüş medal qazanıb. 50 kq çəki dərəcəsində yarışda iştirak edən Mirağa Hacıyev isə bürünc medala sahib olub.

Qeyd edək ki, 42 ölkədən 457 idmançının (255 oğlan, 202 qız) mübarizə apardığı qitə birinciliyində Azərbaycan milli komandası 16 cüdoçu (10 oğlan, 6 qız) ilə təmsil olunub.

## Olimpizm

### 3 qat Olimpiya çempionu dünyasını dəyişib



3 qat Olimpiya çempionu, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) üzvü İrena Szevinska 72 yaşında dünyasını dəyişib. Bu barədə BOK-un mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə daxil olan xəbərdə məlumat verilib.

Polşalı atlet İrena Szevinska 5 Olimpiya Oyunlarında iştirak edib. İdmançı Tokio-1964 Olimpiadasında 4x100 məsafəyə, Mexiko-1968-də 200 m, Monreal-1976-da isə 400 m məsafəyə yarışlarda qızıl medala layiq görülüb. Bundan başqa, idmançı Olimpiya Oyunlarının 2 gümüş, 2 bürünc medalına sahib olub.

Atası polşalı, anası kiyevli olan və Leninqradda doğulan İrena Szevinska həm də 10 qat dünya və 5 qat Avropa çempionudur.

### Paris-2024 Olimpiadasına böyük ümidlər bəsləyirlər

Paris-2024 Olimpiya Oyunları Təşkilat Komitəsinin sədri, Paris şəhərinin meri Anna İdalqo olimpiadadan gözləntiləri ilə bağlı fikirlərini bölüşüb.

"Hazırda bəzi şübhələr var. Amma sizi əmin edirəm ki, biz hamıya ölkə əhalisinin rifah halını yaxşılaşdıracaq bir olimpiada keçirmək qabiliyyətində olduğumuzu göstərəcəyik. Paris-2024 Olimpiadasına böyük ümidlər bəsləyirik.

Düşünürəm ki, Olimpiya Oyunları məhdud imkanları olan insanlara münasibətin dəyişməsində əvəzsiz rol oynayacaq", - deyə Təşkilat Komitəsinin sədri bildirib.

## DÇ-2018: Ulduzlarla vidalaşan azarkeşlər, məqsədinə çatmayan iddialılar

### *Dünya kubokunu heç kimin inanmadığı komanda qazanacaq*

Rusiyada davam edən futbol üzrə dünya çempionatı öz axarı ilə davam edir. Çempionatda baş verən ən maraqlı hadisələr kürənin ən böyük futbol bayramına xüsusi rəng qatır. Bir-birindən fərqli oyun taktikasına malik olan yığma komandalar mərhələ keçdikcə, həyacan daha da artır. Maraqlıdır ki, 1/8 final mərhələsinə vəsiqə əldə edən millilər arasında güclü olan yığmalar mübarizəni dayandırır. Artıq Almaniya, Argentina, Portuqaliya, İspaniya kimi güclü heyətə malik olan yığmalar məğlubiyyətlə barışıb, Rusiyanı tərk ediblər. Hələ qarşıda daha hansı komandanın mundialla vidalaşacağı bugünlərdə müəyyənləşəcək. Bütün bunlar "Olimpiya dünyası" qəzetinin DÇ-2018-ə həsr etdiyi xüsusi buraxılışda oxuculara təqdim olunacaq.

*(4-6-cı səhifələrdə)*

## 2 iyul - İdman Jurnalistləri Günü qeyd olunub

Hər il iyulun 2-si İdman Jurnalistikası Günü kimi qeyd edilir. 1924-cü ildə həmin gün Parisdə Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (İnternational Sports Press Association - AIPS) yaradılıb. Hazırda dünyanın 130 dövlətinin idman jurnalistlərinin milli birlikləri bu assosiasiyanın üzvləridir.

İdman Jurnalistikası Günündə AIPS və idman jurnalistlərinin milli assosiasiyaları təntənəli yığıncaqlar keçirir, idman sahəsində kütləvi informasiya vasitələrinin ən yaxşı nümayəndələrinə mükafatlar təqdim edilir.

Qeyd edək ki, AIPS-nin 77-ci konqresi 2014-cü ildə Azərbaycanın paytaxtı Bakıda keçirilib.

## Avropa çempionatında yelkənçilərimizdən uğurlu çıxış



Haaqada Sxeveningen dəniz limanında "Optimist" sinfi üzrə Avropa çempionatı keçirilib. İyunun 23-dən 30-dək Optimist Avropa Çempionatı mükəmməl yelkən şəraitində baş tutub. Yelkənçilərimiz Avropa çempionatında ölkəmizi müvəffəqiyyətlə təmsil ediblər.

Çətin hava şəraitinə baxmayaraq yelkənli və digər su idmanlarına həsr olunan Avropa çempionatında uğurla iştirak edən yelkənçilərimizin yarışlarda fədakar iştirakı beynəlxalq səviyyəli məşqçilərin diqqətini cəlb edərək xüsusi rəğbətlə qarşılanıb. Təcrübəli və dünya şöhrətli yelkənçilərin iştirak etdiyi Avropa çempionatında yelkənçilərimizin uğurlu iştirakı gələcəkdə də bu cür yarışlara daha əzmlə hazırlaşmağa əsas verir.

*(ardı 2-ci səhifədə)*

olimpnews.az - sizin saytınız




Pəhləvanlarımız dünya çempionatında mübarizə aparırlar

*İdman gimnastikası üzrə Azərbaycan birinciliyi və Bakı çempionatına yekun vurulub*

Çempionlar Liqasının püşkü atılıb

Səh. 2

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

Azərbaycanda gələcəyinə böyük ümidlər bəslənilən uşaq və gənclərimiz yetişir

Səh. 3

# Xocalı kuboku yarışları keçirilib

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Kikboksinq Federasiyasının dəstəyi, "Xocalı" İdman Klubunun təşkilatçılığı ilə Şağan Olimpiya İdman Kompleksində kikboksinq üzrə Xocalı kuboku yarışları keçirilib. "Xocalıya ədalət!" şüarı ilə keçirilən yarışda 20 komandanın tərkibində 200-ə yaxın kadet, yeniyetmə və gənc mübarizə aparıb.

Tədbir haqqında məlumat verən "Xocalı" İdman Klubunun prezidenti, kikboksinq üzrə beşqat dünya çempionu Ehram Məcidov klubda onlarla respublika və Avropa çempionunun olduğunu deyib. "Onların gələcəklərinə böyük ümid bəsləyirik. İnanıram ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başlatdığı "Xocalıya ədalət" kampaniyasının bir hissəsinə çevrilərək səsimizi dünyaya çatdıracağıq. Prezident İlham Əliyevin beynəlxalq miqyasda apardığı uğurlu siyasətə idmançılar olaraq dəstək verməyi özümüzə borc bilir, bu yolda qətiyyətlə addımlayırıq. "Xocalı" İdman Klubu yarandığı gündən etibarən Xocalıdan olan uşaqların sağlam ruhda böyümələri üçün var gücü ilə çalışır", - deyə o əlavə edib.

Klubun vitse-prezidenti Tural Alışanlı isə çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə idmana göstərdiyi diqqət və qayğıdan bəhs edib və hamını "Xocalıya ədalət!" deməyə səsləyib.

Dünya və Avropa çempionu, məşqçi Emil Hacıyev söyləyib ki, belə yarışların keçirilməsi gənc nəsildə vətənpərvərlik ruhunu aşılamaqla yanaşı, onları sağlamlığa dəvət edir. İdman sağlamlıqdır, sağlamlıq olan yerdə isə parlaq gələcək olar.

Qeyd edək ki, yarışın fəxri kubokunu Xocalı kikboksçuları qazanıblar.

# Pəhləvanlarımız dünya çempionatında mübarizə aparırlar



Xorvatiyanın Zaqreb şəhərində yeniyetmə güləşçilərin dünya çempionatı başlayıb. Yarışlara dünən start verilib və ilk yarış günündə 48 kq, 55 kq, 65 kq, 80 kq və 110 kq çəki dərəcəsində sərbəst güləşçilər mübarizə aparıblar. Dörd güləşçimiz dünya çempionatının yarımfinalına yüksəlib.

Dünya çempionatına ayın 8-də yekun vurulacaq.

# İdman gimnastikası üzrə Azərbaycan birinciliyi və Bakı çempionatına yekun vurulub



Azərbaycan Gimnastika Federasiyası yerli yarışlar mövsümünə start verib.

İyunun 29-30-da kişi və qadın idman gimnastikası üzrə XXV Azərbaycan birinciliyi və Bakı çempionatı keçirildi. Yarışlarda ümumilikdə, 100-dən çox gimnast qüvvəsini sınadı.

Yarışlarda qadın idman gimnastları böyüklər, gənclər, yeniyetmələr, uşaqlar, balacalar və kişi idman gimnastları isə böyüklər, gənclər, yeniyetmələr, uşaqlar, balacalar, kiçiklər və balalar yaş qrupunda mübarizə apardılar. Bakı Gimnastika Məktəbi (BGM), "Ocaq", "Neftçi", "Zirə" idman klubları, eləcə də, Respublika Olimpiya İdman Liseyinin yetirmələri aralarında ən güclüləri müəyyənləşdirdilər.

Yarışların birinci günündə 2005-2006-cı il təvəllüdlü kişi gimnastlar arasında Bakı Gimnastika Məktəbinin (BGM) yetirmələri Şamxal Əhmədov birinci, Riad Səfərov ikinci, "Ocaq" idman klubunun yetirməsi Fərhad Şepelev isə üçüncü yeri tutdu. 2003-2005-ci il təvəllüdlü yeniyetmələr arasında yarışların nəticələrinə əsasən BGM-in təmsilçiləri Ramin Dəmirov birinci, Anar Həsənov ikinci, Aydın Əlizadə isə üçüncü yerə layiq görüldülər.



Bakı çempionatı çərçivəsində gənclər arasında idman gimnastikası üzrə yarışlarda Dari Morozov birinci, Murad Ağarzayev isə ikinci yerdə qərar tutdular. Gənc qadın gimnastlar arasında isə birinci yeri Samirə Qəhrəmanova tutdu. İkinci yerə isə Valeriya Şulyayeva layiq görüldü.

Kişilər arasında 2010-2011-ci il təvəllüdlü balacaların yarışlarında Hüseyn Mustafazadə birinci, İbrahim Aydınlı ikinci, Rəşad Əliyev isə üçüncü oldu. 2011-ci il təvəllüdlü balacalar arasında yarışların nəticələrinə görə "Ocaq" idman klubunun yetirmələri Leyla Məmmədzadə qızıl, Nurana Əliyeva gümüş, Albina Əliyeva isə bürünc mükafata sahib oldu.

2009-2010-cu il təvəllüdlü qızlar arasında çoxnövçülük yarışında "Ocaq" idman klubunun təmsilçiləri Amaliya və Asiya Ağayeva bacıları müvafiq olaraq qızıl və gümüş, Xədicə Abbaszadə isə bürünc medala sahib çıxdılar.

Məlumat üçün bildirək ki, bu ilin avqust ayında Qlazqoda (Böyük Britaniya) idman gimnastikası üzrə Avropa çempionatı keçiriləcək.

***Səadət Hakıyeva***

# Qrossmeysterlərimiz mövqeylərini qorudular

Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq cədvəlini açıqlayıb. İyul ayı üçün müəyyənləşən siyahıda Azərbaycan yığmasının 7 üzvü yer alıb. Yığmamızın lideri Şəhriyar Məmmədyarov 3-cü pillədəki yerini qoruyub. Onu yenə norveçli Maqnus Karlsen (2842) və Fabiano Karuana (ABŞ, 2822) qabaqlayır. 7 xal itirən həmyerlimizin hesabında 2801 xalı var.

Teymur Rəcəbov da mövqeyini qoruyub. 2751 xala malik həmyerlimiz 17-ci yerə sahibdi. Rauf Məmmədov 36-cı yerdə qərarlaşıb. Təmsilçimizin aktivində 2708 xalı var.

47-ci olan Arkadi Naydiç 2698 xala malikdi. O, ötən ayla müqayisədə həm mövqeyini, həm də xalını qoruyub. Eltac Səfərliyə gəlincə, 1 xal qazanaraq, aktivini 2667-yə çatdıran qrossmeyster 1 pilləlik irəliləyişlə 76-cı yerə yüksəlib.

Siyahıdakı sonuncu təmsilçimiz Qədir Hüseynov 2 pillə geriləməklə 101-cidi. Həmyerlimizin hesabında 2654 xalı var.

Qadınların "Top-100"ündə isə yalnız 1 şahmatçımız qalıb. Bu, Günay Məmmədzadədi. 16 xal itirən təmsilçimizin hesabında 2426 xalı var və 5 pillə geriləyərək, 37-ci yerə enib.

# Millimizin üzvü Fransada çıxış edəcək

Futzal üzrə Azərbaycan millisinin və "Araz" klubunun üzvü Eduardo Borges karyerası ilə bağlı yeni qərar verib. Futzalçı qarşıdakı mövsümü Fransa çempionatında keçirəcək. Belə ki, mayda "Araz"la müqaviləsi başa çatan müdafiəçi Fransanın "Acces Futsal" klubu ilə anlaşıb.

Qeyd edək ki, Eduardo 2013-cü ildən millinin formasını geyinir. O, üç dəfə Avropa, bir dəfə isə dünya çempionatının final mərhələsində Azərbaycan milli komandasının uğur qazanması üçün çalışıb.

# Avropa çempionatında yelkənçilərimizdən uğurlu çıxış

(əvvəli 1-ci səhifədə)

"Optimist" sinfi üzrə keçirilən Avropa çempionatında Azərbaycanı yelkənçilərimiz Ayla Babayeva, Murad Allahverdi, İsmayıl Kərimov, Murad İsmayılov, Murad Hacızadə, Kristina Kərimova, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız təmsil ediblər.

Xatırladaq ki, aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.

Məqsədlərə çatmaq üçün federasiya tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman üzrə qayıqların gətirilməsi, eyni zamanda, qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi təmin edilib. Bu addımların davamı olaraq 31 may - 3 iyun tarixlərində də Yelkənli İdman Federasiyasının komandasının hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədilə təlim düşərgəsi təşkil olunmuşdu. Məşqlərin yüksəkkeyfiyyətli olması və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi, 6 dünya və 4 Avropa çempionatının qalibi, 30 il məşqçi kimi fəaliyyət göstərən Dragan Gasic Yelkənli İdman Federasiyası tərəfindən təlimə cəlb edilmişdi.

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasında 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

# Çempionlar Liqasının püşkü atılıb



Qadın voleybolçular arasında Çempionlar Liqasının 2018/2019 mövsümünün püşkü atılıb. Azərbaycan klublarının təmsil olunmadığı yarışda yığmamızın hücumçusu Yekaterina Jidkova mübarizə aparacaq. Belə ki, voleybolçumuzun yeni transfer olunduğu Rumıniya "Alba"sı yarışa II təsnifat mərhələsindən başlayacaq. Blaj klubu Çexiya "Olomouts"u ilə üz-üzə gələcək. Jidkovanın komandası mərhələ adlayacağı halda, "UVC Holding" (Avstriya)/"Sliedrext" (Hollandiya) - "Ştutqart" (Almaniya) duelinin qalibi ilə qarşılaşacaq.

Qeyd edək ki, I və II təsnifat mərhələləri oktyabrda, III təsnifat mərhələsi noyabrda oynanılacaq.

# Ölək birinciliyi başa çatıb

***Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə keçirilən ölkə birinciliyinə iyunun 29-da yekun vurulub.***



Üç gün davam edən yarışda 2006-cı il təvəllüdlü və daha aşağı yaşlı yüzdən çox tennisçi gücünü sınayıb.

Turnirin qaliblərinin mükafatlandırılması mərasimində çıxış edən Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov ölkəmizdə idmanın bu növünün inkişafı və kütləviliyinin artırılması baxımından belə turnirlərin əhəmiyyətini yüksək qiymətləndirib.

Turnirdə şəxsi kateqoriyada qızların yarışında Sumqayıt təmsilçiləri qalib gəliblər. Fəxri kürsüdə Mərziyyə Nurmətova birinci, Arzu Aslanova ikinci və Mehriban Dadaşova üçüncü pillədə qərarlaşıblar.

Oğlanların mübarizəsində isə Adil Əhmədzadə, Xaliq Becanov və Rüstəm Hacılı müvafiq olaraq ilk üç pillədə yer alıblar.

Turnirin qaliblərinə və onların məşqçilərinə Gənclər və İdman Nazirliyinin diplomu və Federasiyanın kuboku, medalları və pul mükafatları təqdim olunub.

# Astanada uğurlu nəticə

Qazaxıstanın paytaxtı Astanada keçirilən sambo üzrə dünya kuboku yarışlarına yekun vurulub.

"Neftçi İdman Klubu"nun Azərbaycan millisinin heyətində yer almış təmsilçilərindən üçü mötəbər turnirin medalını qazanıb.



Klubun yetirmələrindən 52 kiloqram çəki dərəcəsində mübarizə aparan Ağasif Səmədov yalnız final görüşündə məğlub olub və gümüş medala layiq görülüb. Cavidan Qarayev (62 kq) və Samir Kərimov (74 kq) isə yarışı üçüncü yerdə başa vurublar.

# Karateçimiz beynəlxalq turnirdə mükafatçılar sırasında yer alıb

Azərbaycan karateçisi Qürbət Məhərrəmov ölkəmizdə keçirilən beynəlxalq turnirdə mükafatçılar sırasında yer alıb.

İdmançımız karatenin Olimpiya növü olan WKF versiyası üzrə "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən Qara dəniz və Xəzəryanı ölkələr arasında beynəlxalq turnirdə gümüş medal qazanıb.



Turnirdə Azərbaycan karateçiləri ilə yanaşı, Türkiyə, İran, Gürcüstan, Rusiya və İsrail idmançıları da birincilik uğrunda mübarizə aparıblar.

600-dək karateçinin yarışdığı turnirdə Azərbaycan idmançıları uğurlu çıxışları ilə fərqləniblər. Turnirdə 84 kiloqram çəki dərəcəsində mübarizə aparan "Arpaçay" klubunun üzvü Qürbət Məhərrəmov keçirdiyi dörd görüşdə iki komanda yoldaşını, həmçinin iranlı və dağıstanlı rəqiblərini məğlub edərək finala yüksəlib. Gərgin idman mübarizəsi şəraitində keçən final görüşündə Q.Məhərrəmov gümüş medalla kifayətlənməli olub.

Yarışa Azərbaycan Milli Karate Federasiyasının beynəlxalq dərəcəli hakimi Vüqar Kərimovun rəhbərliyi ilə çıxan idmançımız Avropa və dünya çempionatının bürünc medalçısıdır. O, həmçinin ikinci Dan qara kəmər ustasıdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Azərbaycanda gələcəyinə böyük ümidlər bəslənilən uşaq və gənclərimiz yetişir

## Uşaq futbolunun inkişafı akademiyalardan başlanır

***Həm məhəllə futbolu, mini futbol yarışları, həm də paytaxt birinciliklәri, müxtəlif əlamətdar tarixi günlərə həsr olunmuş yarışlar əslində uşaq futbolunun inkişafının göstəricisidir. Uşaq futbolunun inkişafı daha çox Uşaq-Gənclər İdman məktəblərinin, klubların və akademiyaların üzərinə düşür. Məktəblilərin asudə vaxtlarının səmərəli keçirmələri üçün mövcud şəraitin yaradılması və uşaqların bu bölmələrə cəlb edilməsi əsas amillərdən biri hesab olunur. Artıq sevindirici haldır ki, müəyyən tədbirlər və layihələrdən sonra uşaq futbolunda da irəliləyişlər hiss olunmağa başlayıb. Kütləvilik artıb, yeni futbol məktəbləri və akademiyalar açılıb, uşaq futbolunda bir çox infrastrukturlar yenilənib. Uşaqlar arasında keçirilən birinciliklərin sayı da əvvəlki illərə nisbətən artıb.***




Qeyd etdiyimiz kimi, ölkəmizdə futbolun inkişafı üçün bir sıra futbol akademiyaları, klublar və idman məktəbləri fəaliyyət göstərir.

Paytaxtımızda fəaliyyət göstərən belə akademiyalardan biri də "Tekin" futbol klubudur. Yeni yaradılan klubda uşaq və yeniyetmələrin inkişafı üçün hər cür şərait yaradılıb. Bir sözlə, ürəyində, düşüncəsində futbolçu olmaq həvəsi olan uşaq və yeniyetmələr "Tekin"də bu oyunun sirlərinə yiyələnirlər. Kluba təcrübəli mütəxəssis İsa Fərzəliyev rəhbərlik edir. 18 illik təcrübəyə malik olan gənc mütəxəssis uşaq futbolunun inkişafında öz zəhmətini əsirgəməyib. İsa müəllim bu illər ərzində "Qarabağ" futbol klubunda, "Təhsil" Respublika İdman Mərkəzində və "Lokomotiv" idman cəmiyyətində çalışıb. Buyaxınlarda "Tekin" Futbol Akademiyasının nəzdində fəaliyyət göstərən "Tekin" futbol klubunun təsisçisi ilə redaksiyamızda görüşüb, söhbət etdik. Klub haqqında geniş məlumat verən müsahibimiz, görülən işlərdən, gələcək planlardan danışdı. Neçə-neçə yeniyetmə futbolçular yetişdirən məşqçi bildirdi ki, artıq onun yetirmələri müxtəlif yaş qrupları üzrə yığma komandalara cəlb olunublar. ""Tekin" Futbol Akademiyası fəaliyyətə başlayanda qərara aldıq ki, bu qurumun nəzdində "Tekin" futbol klubunu yaradaq. Klub bu ilin mart ayından fəaliyyət göstərir. Lakin bu üç ay ərzində biz demək olar ki, klubda üç ildə görüləcək işin öhdəsindən gəlmişik. Klubda 150-ə yaxın uşaq və yeniyetmə futbolun sirlərinə yiyələnir. Bu uşaqlarla işləmək üçün gənc məşqçilər dəvət etmişik. Demək olar ki, 6 gənc məşqçimiz var. Yerli məşqçilərlə yanaşı, türkiyəli mütəxəssislərin də təcrübəsindən yararlanırıq. Sebahettin Tekin və Ferhat Timuçin klubumuzda öz təcrübəsini bizimlə bölüşür. Sebahettin Tekin 2 il "Qarabağ" Akademiyasında texniki koordinator vəzifəsində işləyib. Həmin illər ərzində komanda çempion olub. O, çox təcrübəli mütəxəssisdir. Əsas məqsədimiz komandada yaxşı, perspektivli uşaqları üzə çıxarıb, milli komandaya təhvil verməkdir. "Tekin" Futbol Akademiyasının müxtəlif yaş qrupları üzrə komandaları formalaşıb. Artıq yarışların hazırlığına start verilib. Bizim iştirakımızla yeni futbol mövsümü daha maraqlı, daha rəngarəng olacaq. Yarışlar futbolçularımızın təcrübəsinin artmasında, onların peşəkar səviyyəyə gəlib çatmasında mühüm rol oynayacaq. Əminik ki, qısa zaman ərzində yetirmələrimiz milli komanda səviyyəsinə qədər yüksələcəklər. Bu, təkcə bizim yox, həm də onların hədəfidir. Bu yolda bizə dəstək olan hər kəsə təşəkkürümüzü bildiririk".

### Hər bir uşaq klubun forması ilə məşqə çıxır

AFFA-nın bayrağı altında təşkil olunacaq yarışlarda 2 komanda ilə iştirak etmək istədiklərini deyən İsa Fərzəliyev növbəti illərdə komandaların sayını daha da artırmağı düşünür. "Çox istəyirik ki, 15,16 və 17 yaşlılardan ibarət komandaya öz töhfəmizi verək. Hazırda Respublika Olimpiya növlərinin təlim-məşq bazasında qərarlaşmışıq. Orada hər cür şəraitimiz var. Klub lazım olan inventarlar, toplar və formalarla təmin olunub. Hər bir uşaq klubun forması ilə məşqə çıxır. Bu ilin sentyabr ayında başlayacaq yarışlara yüksək səviyyədə hazırlaşırıq. Həm məşqçilər, həm də uşaqlar bu işdə çox maraqlıdırlar. Hazırda 2002-ci illər təvəllüdlü uşaqlardan, 2012-ci illər təvəllüdlü uşaqlara qədər komandalarımız var. Turnirlərdə isə 9 və 10 yaş kateqoriyasında olan uşaqlarla iştirak edəcəyik. Komandamızı qarşıda bir sıra ciddi sınaqlar gözləyir. Bu, Azərbaycan birinciliyi, "Sabahın ulduzları", Bakı birinciliyi və digər yarışlardır.Bizim üçün ən əsas yarış Azərbaycan birinciliyi olacaq. 10 yaşlılardan ibarət komandamız bu turnirdə qüvvəsini sınayacaq. Bu yarışlarda iştirak etmək üçün əsas heyətə düşə bilməyən oyunçularımız isə "Sabahın ulduzları" və Bakı birinciliklərində mübarizə aparacaqlar. Bundan başqa ənənəvi turnirlər də çox olur. Belə turnirlərə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş turnirləri, Anatoli Banişevskinin, Ələkbər Məmmədovun Rəşid Özbəyovun və Adil Babayevin xatirəsinə həsr olunmuş turnirləri göstərmək olar. Çalışacağıq ki, bu turnirlərdə də komandamız mübarizə aparsın", - deyə İsa Fərzəliyev bildirdi.

### "Akademiyada uşaqların problemlərinə qayğı ilə yanaşılır"

İsa Fərzəliyev "Tekin" futbol klubunun ölkəmizdə fəaliyyət göstərən digər klublardan fərqlənəcəyini də qeyd etdi. "Bildiyiniz kimi, bu gün ölkəmizdə uşaq futbolunun inkişafı üçün yetərincə idman klubları və akademiyalar fəaliyyət göstərir. Bu gün ölkəmizdə əsasən, "Qəbələ", "Qarabağ" və digər klubların futbol akademiyaları var. Bu akademiyalarda çox təcrübəli mütəxəssislər çalışırlar. Sözsüz ki, bu klublarla rəqabət aparmaq çox çətindir. Lakin qeyd etdiyim kimi, bizim ilk növbədə əsas məqsədimiz klubda məşq edən uşaqların hazırlıq səviyyəsini yüksəltmək və milli komandaya hazır oyunçular yetişdirməkdir. Fikrimcə, burada bizim fərqimiz ondan ibarətdir ki, biz bir ailə yaratdıq və bütün uşaqların istər səhhəti ilə, istərsə də problemləri ilə maraqlanırıq. Əgər hər hansısa bir uşağın müəyyən problemi varsa, biz bir məşqçi kimi bu problemi həll etməyə çalışırıq. Biz məşqçidən əlavə onlar üçün həm də valideynik. Bir sözlə, möhkəm bir ailə yaratmışıq. 150 uşağın hamısı bir-birini tanıyır. Biz təkcə ölkəmizdə keçirilən hazırlıqlarla kifayətlənmək fikrində deyilik. Planlarımızda varki, gələcəkdə komandamızın ölkə hüdudlarından kənarda təşkil olunan yarışlarda və təlim-məşq toplanışlarında iştirakını təmin edək. Türkiyədən də bir çox təkliflər olacaq. Yəqin ki, orada təşkil olunan beynəlxalq turnirlərdə də iştirak edəcəyik. Uğurlu nəticə əldə etmək üçün bu çox vacibdir. Uşaqlar hər dəfə yeni bir yarış, yeni bir rəqib görərlərsə, bu onların hazırlığına çox müsbət təsir göstərər. Hazırda bazada hər qrup üçün həftənin üç günü, saat yarım məşqlər keçirilir. Komandamız yeni qurulub, deyə üç məşq və bir oyun təşkil edirik".

### Qeydiyyata götürülən uşaqlar iki qrupa bölünür

Kluba uşaq seçimi üçün reklama o dərəcədə də ehtiyac bilmədiyini deyən həmsöhbətimiz bu məsələdə böyük təcrübəyə malik olduğunu vurğuladı. Onun sözlərinə görə əvvəlki illərdə perspektivli uşaqları aşkar etmək üçün paytaxtda yerləşən kənd və qəsəbələrə, habelə məktəblərə üz tutaraq, orada uşaqlar arasından seçim etməli olurdu.Qeyd edək ki, hazırda akademiyaya seçim prosesi 5 yaşından 14 yaşınadək uşaqlar arasında aparılır. Uşaqlar akademiyaya müraciət etdikdən sonra burada onların sağlamlığı ilə bağlı hər bir məqama diqqət yetirilir.

Qeyd edək ki, futbolla məşğul olmaq istəyən hər bir uşaq sağlam olmalıdır. Uşağın sağamlığı haqqında məlumata tam əmin olduqdan sonra uşaqlar akademiyaya qeydiyyata götürülür. "Tekin" Futbol Akademiyasında uşaqlar qeydiyyatdan keçdikdən sonra iki qrupa ayrılır. Bu qrupların biri turnirlərdə yarışan uşaqlardan ibarət olur. Yəni həmin qrupda əsasən, Azərbaycan birinciliyində yarışacaq uşaqlar yer alırlar. Digər qrupda isə təcrübəsi az olan, uşaqlar olurlar ki, peşəkar məşqçilər heyəti müəyyən müddət ərzində onlarla birgə çalışaraq bu çatışmazlıqları aradan qaldırırlar.

Təcrübəli mütəxəssislə söhbət zamanı öyrəndik ki, onun yetirmələri arasında Premyer Liqada və Türkiyənin aşağı liqalarında çıxış edən idmançılar da var. Çempionluqdan çox istedadlı uşaqları üzə çıxarmağı qarşısına məqsəd qoyan İsa müəllim yetirmələri ilə fəxr etdiyini bildirir. "Heç vaxt çempionluq və ya uğurlu nəticə ilə maraqlanmamışam. Bizim işimizdə əsas məsələ çempionluq deyil, uşaqların hazırlığını yüksək səviyyədə təşkil etməkdir. Nəticələr isə sonranın işidir. Əgər uşaq fiziki və taktiki cəhətdən yüksək səviyyədə olarsa, burada nəticə də öz təsirini göstərəcək. Mənim üçün ən böyük nəticə milli komandanın heyətinə istedadlı uşaqlar yetişdirməkdir. Bu, mənim üçün bütün çempionluqlardan üstündür. Bu gün fəxrlə deyə bilərəm ki, milli komandada və Premyer Liqada oynayan uşaqlarımız var. Bunlara misal olaraq Fəhmin Muradbəylinin, Nuran Qurbanovun adlarını qeyd edə bilərəm. Fəhmin Muradbəyli hazırda "Səbail" komandasında çıxış edir. Nuran Qurbanov isə "Bakı" və "Qəbələ" komandalarında oynayıb. Hazırda isə Türkiyədə çıxış edir. Digər yetirməm isə Zaur Fərzəliyevdir. O, hazırda "Qarabağ"da əvəzedicilərdən əsas komandaya namizəddir. Yəni ötən illərdə Premyer Liqa səviyyəsində yetişən uşaqlarımız olub. Gənc perspektivlər arasında Ayxan Əkbərlinin adını xüsusi qeyd etmək istəyirəm. Bu cür uşaqların gələcəyinə biz məşqçilər böyük ümid bəsləyirik", - deyə o, bildirdi.

### "Müəyyən yaş həddinə qədər yarışlarda turnir cədvəli olmamalıdır"

Gələcəyimiz uşaqlardı deyiriksə, deməli kiçik yaşlarından etibarən keçirilən məşqlərə, balacaların peşəkar futbola hazırlanmasına da önəm verməliyik. Təəssüf ki, keçmişdən indiyə qədər futbolun vitrini həmişə peşəkar futbol olub. KİV xəbərlərinin, jurnalların, məşqçi təhsilinin çoxu məhz peşəkar futbol üzərində qurulub. Uşaq futbolu isə daim arxa planda qalıb. Bu da uşaqlara keçilən məşqlərin formasına daha az önəm verilməsinə səbəb olub. Nəticədə uşaqlara ya yeniyetmələrə aid, ya da buna oxşar məşqlər keçirilib. Amma bu günün uşaq və gəncləri sabahın peşəkar futbolçularıdır. Ölkədə gələcəkdə futbolçu ola biləcək kifayət qədər uşaq var. Uşaqların yetişməsi üçün vacib olan stadion və meydançaların salınmasıdı ki, bir çox bölgələrimizdə, şəhərətrafı yaşayış məntəqələrində bununla bağlı ciddi problemlər var. Daha doğrusu, bu məsələyə əhəmiyyət verən yoxdu. Uşaq futbol məşqləri diqqətdən və mükəmməl təşkilatçılıqdan uzaq qalarsa, bunun fəsadları qaçılmaz olacaq. Elə aidiyyatı qurumlar da bu məsələlərin üzərində var-gəl edirlər. Müsahibimiz isə uşaq futbolunun inkişafına öz prizmasından yanaşdı. Onun sözlərinə görə Azərbaycanda yaxşı perspektivli uşaqlar yetərincədir. Sadəcə, uşaqların bəslənməsi bir qədər düzgün deyil. "Bu gün uşaq futbolunun inkişafına töhfələr verən mütəxəssislərimiz yetərincədir. Əgər məşqçilərimiz öz üzərlərində çalışsalar, xarici ölkələrdə təşkil olunan təlimlərdə iştirak etsələr, təcrübə baxımından daha böyük üstünlük əldə edə bilərlər. Bəzən çox yerdə qeyd olunur ki, Azərbaycanda uşaq futbolu inkişaf etmir, lazımi səviyyədə perspektivli uşaq və gənclərimiz yoxdur. Amma bu belə deyil. Mən belə düşünmürəm. Əminliklə, söyləyə bilərəm ki, bu gün Azərbaycanda gələcəyinə böyük ümidlər bəslənilən uşaq və gənclərimiz yetişir. Mən Hollandiya, Türkiyə və Makedoniyadan olan mütəxəssislərlə işləmişəm. Həmin mütəxəssislər də bizim uşaqların potensiallarını çox bəyənmişdilər. Sadəcə, bu işi bir qədər inkişaf etdirmək lazımdır. Uşaq, valideyn, məşqçi, klub və federasiya bir yumruq olub, hədəfə vurmalıdırlar. Bəslənməyə, qidalanmaya, rejimə düzgün əməl etməyən uşaq yüksək nəticə qazana bilməz. Bir məsələyə diqqət yetirmək lazımdır ki, akademiyaları olan klublarda uşaqların artımına daha çox rast gəlirik. Respublika Olimpiya İdman Liseyini buna nümunə kimi göstərmək olar. ROİL-də Azərbaycan idmanına töhfə verən nə qədər gənc futbolçu yetişib. Arif Əsədov, Vladislav Qədirov, Tərlan Əhmədov və başqalarının adlarını qeyd etmək olar. Yəni baza bir növ uşaqların bəslənməsi, təhsili üçün çox vacibdir. Lakin bugünki gündə uşaqların hərəsi bir cür məşqlərə qoşulur. Biri məşqə ac, biri müəyyən problemlərlə, digəri isə yuxu pozğunluğu ilə gəlir. Bunların hamısını bir arada həll etmək çox çətindir. Lakin baza olduğu halda həmin uşaqların qidalanma məsələlərindən tutmuş, yuxu rejminə və tədrisinə nəzarət etmək olar. Qeyd etdiyim kimi, uşaqlar akademiyalarda qalmalıdırlar ki, bir-birini anlaya bilsinlər. Mən bir çox ölkələrdə olmuşam, həmin ölkələrdə futbol məşqlərinin keçirilməsində iştirak etmişəm. Məsələn Hollandiyada aşağı yaş qruplarında, U-14, U-15 liqalarına qədər yarışlarda turnir cədvəli yoxdur. Burada əsas məqsəd yalnız uşaqların hazırlanması və klublara verilməsindən ibarətdir. Fikrimcə, bu bizdə də belə olmalıdır. Müəyyən yaş həddinə qədər yarışlarda turnir cədvəli olmamalıdır. Bu gün məşqçilərin əksəriyyəti maraqlıdır ki, komandaları çempion olsun. Bunun nə verəcəyini isə düşünmürlər. Çalışmaq lazımdır ki, perspektivli idmançılar yetişdirib, yeni nəsil formalaşdırasan.

Bundan başqa digər mənfi cəhət isə bizim aşağı yaş qruplarından ibarət klublarımızın beynəlxalq yarışlarda az iştirak etməsi ilə bağlıdır. Biri var ki, gündə bir məşq keçirsən, biri də var ki, gün ərzində iki dəfə məşq keçirsən. Xarici klublar il ərzində 200 məşq keçirlərsə, bizim komandalar 60-80 məşq keçirlər. Xarici klubların əksəriyyəti tez-tez başqa ölkələrdə təşkil olunan turnirlərə və təlim-məşq toplanışlarına gedirlər. Amma Azərbaycanda isə bu belə deyil. Bu da həm təcrübə baxımdan, həm də yüksək hazırlıq baxımdan öz mənfi təsirini göstərir. İstərdim ki, aşağı yaş qrupları üzrə komandalarımız xarici ölkələrdə təşkil olunan turnirlərdə tez-tez iştirak etsinlər və beynəlxalq təcrübə qazansınlar.

Fikrimcə, yalnız belə olan halda bu problemlərin həll yolunu tapmaq mümkün olar", - deyə müsahibimiz əlavə etdi.

### "Təhsil uşaq və yeniyetmələr üçün etibarlı kompas rolunu oynamalıdır"

Deyirlər ki, kamil insan idrakının, elminin, həyat təcrübəsinin gücündən bəhrələnməklə daim həqiqət axtarışındadır. Ümumi təhsil illəri insanın məhz elə bir yaş dövrünə təsadüf edir ki, o, həyatda hələ kövrək addımlarını atır, yaxşı ilə pisi ayırd etməkdə, baş verən hadisələrin mahiyyətini aydınlaşdırmaqda çətinlik çəkir, şübhələr və qeyri-müəyyənliklər içərisində vurnuxur. Çox vaxt həyatda müxtəlif insanların nümunəsində söz və əməlin əksliyinin şahidi olur. Belə bir vəziyyətdə, ilk növbədə, ümumi təhsil uşaq və yeniyetmələr üçün etibarlı kompas rolunu oynamalıdır. Onların təhsil aldıqları məktəblərdə elə bir mənəvi-psixoloji iqlim və təlim-tərbiyə şəraiti hökm sürməlidir ki, uşaqlar bütün şübhələrdən azad olsunlar, onlarda həyata və insanlara dərin inam yaransın, mənəvi cəhətdən saf və əqidəli formalaşsınlar. Bu mənada məktəbi "Müqəddəs məbəd" adlandıranlar heç də səhv etmirlər. Məktəb belə bir şərəfə yalnız biliklərin mənimsənildiyi müəssisə olduğu üçün deyil, hər şeydən əvvəl, üzərinəmənəviyyatlı insanlar yetişdirmək məsuliyyəti düşdüyü üçün görülür.

Bu gün Azərbaycan idmançılarının yaralı yerlərindən biri də məhz təhsil və idmanın paralel inkişaf etdirilməsi məsələsidir. Hər uşaqda bu proses eyni cür olmur. Kimi, idmanla təhsili eyni vaxtda çatdıra bilmədiyini desə də, kimisi isə bu iki sahənin paralel inkişaf etməsinin sağlam gənclik üçün müsbət hal olduğunu qeyd edir. Elə müsahibimiz İsa Fərzəliyev də təhsillə idmanın vəhdət təşkil edərək birgə inkişaf etməsinin vacibliyini önə çəkdi. Onun fikrincə savadlı, təhsilli uşaq, idmanda da müvəffəqiyyət əldə etməyi bacaracaq: "Təhsil hər bir idmançı üçün vacib olan komponentdir. Bir məsələni qeyd edim ki, savadlı uşaq savadlı futbol oynayır. Mən bunu öz təcrübəmdə də görmüşəm. Orta məktəbdə 5 alan uşaq, futbolu da yaxşı oynayır. Hər məşqin əvvəlində və sonunda tələbələrimə təhsilin ön planda durduğunu vurğulayıram. Bu gün Azərbaycana ən birinci savadlı, sağlam və vətənpərvər gənclər lazımdır. Futbol isə bütün bunlardan sonra gəlir. Hər bir uşaqda vətənpərvərlik, qələbə əzmi olmalıdır. Bəzən kluba elə uşaqlar müraciət edirlər ki, bir məşqçi kimi həmin uşağın digərlərinə də mənfi təsir göstərəcəyini düşünərək məşqlərdən kənarlaşdırırıq. Klubda olan 150 uşağın hər birinin həm təhsili, həm də tərbiyəsi ilə maraqlanırıq. Bu uşaqların gələcəyinə çox inanıram".

### "Müəyyən mərhələlərdən sonra bu inkişaf öz nəticəsini verəcək"

Sevindirici haldır ki, bu gün klublarımız "Qarabağ", "Qəbələ" "Neftçi" komandaları Avropaya səs salmağa müvəffəq olublar. "Qarabağ" klubu ötən il Çempionlar Liqasının qrup mərhələsinə yüksəlməklə Azərbaycan futbolu tarixində bir ilkə nail oldu. İspaniyanın "Atletiko", İngiltərənin "Çelsi" və İtaliyanın "Roma" klublarının Bakıya gəlməsi Azərbaycan futbolundakı irəliləyişdən xəbər verirdi. Çempionlar Liqasının himnin Bakıda səsləndirilməsi isə çox qürurverici hisslər idi. Belə böyük klublar qarşısında "Qarabağ"ın əzmkarlıqla mübarizə aparması sadəcə təqdirəlayiq idi. Bu yarışların təcrübə baxımdan Azərbaycan futbolunda böyük rol oynadığını deyən İsa Fərzəliyev uğurun davamını gətirmək üçün aşağı yaş qruplarında oynayan uşaqların hazırlığına diqqət yetirməyin vacibliyini ön plana çəkdi. "Avropanın aparıcı klublarının Bakıya təşrif buyurması futbolumuzun inkişafı üçün müsbət haldır. İndi əsas məsələ bu işin davamını gətirməkdir. Bunun üçün də ilk növbədə uşaq futbolunun inkişafına diqqət göstərilməli, möhkəm bir sistem qurulmalıdır. U-9-dan U-19-a qədər mərhələni zəncirvari bir-birinə bağlayan bir sistem olmaldır. Bu gün Azərbaycanda təkmübarizlik idman növləri üstünlük təşkil edir. Lakin gəlin baxaq, Hollandiyadan bir iki idmançını çıxmaq şərti ilə güləşçi, karateçi çıxıb? Xeyr. Amma Azərbaycanda illər ərzində təkmübarizlik idman növləri üzrə dünya, Avropa, Olimpiya çempionları yetişib. Yəni bu gün, Azərbaycanla Belçikanın, Hollandiyanın və digər ölkələrin futbolunu bir pilləyə qoya bilmərik. Bunun üçün mərhələlər lazımdır. İslandiya 300 min əhalisi olan ölkədir. Amma dünya və Avropa çempionatlarında iştirak edir. Yəni onlar müəyyən mərhələlərdən keçərək bu inkişafa nail olublar. Bizdə də bu belə olacaq. Müəyyən mərhələlərdən sonra bu inkişaf öz nəticəsini verəcək".

Futbol komanda oyunudur. Burada məşqçidən tutmuş, futbolçuya qədər hər kəs əl-ələ verib nəticə üçün birgə çalışmalıdır. Yalnız bu halda,uğurlu nəticə əldə etmək mümkün olar. İnanırıq ki, bir ailə tablosu yaradan "Tekin" Futbol Akademiyasınının rəhbərliyi və futbolçuları qısa müddət ərzində nəinki ölkəyə, hətta beynəlxalq arenalara da səs salmağa müvəffəq olacaq.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*








# FUTBOL

XÜSUSİ BURAXILIŞ - 5

# DÇ-2018: Ulduzlarla vidalaşan azarkeşlər, məqsədinə çatmayan iddialılar

## Dünya kubokunu heç kimin inanmadığı komanda qazanacaq

(əvvəli 1-ci səhifədə)

### Seneqal "Fair-pley"in qurbanı oldu

**H qrupu**

**III tur**

**Seneqal - Kolumbiya - 0:1 (0:0)**
**Qol:** Yerri Mina, 74
**Sarı vərəqələr:** Mbaye Nyanq, 51 - Xoan Moxika, 45
**Hakimlər:** Milorad Majiç, Dalibor Curceviç, Milovan Ristiç (hamısı Serbiya)
***28 iyun. Samara. "Kosmos Arena", 41970 tamaşaçı***

Rusiyada təşkil olunan futbol üzrə dünya çempionatının 15-ci gününə H qrupunun oyunları ilə start verilib. Meydana bu qrupda yer alan Seneqal və Kolumbiya komandaları çıxıblar. Görüşdə kolumbiyalılar 1:0 hesabı ilə qalib gəliblər. Oyunda yeganə qolun müəllifi 74-cü dəqiqədə başla fərqlənən Yerri Mina olub. Beləliklə, bu qələbədən sonra Kolumbiya millisi qrupda birinci yeri tutaraq dünya çempionatının səkkizdəbir final mərhələsinə yüksəlib.

**Yaponiya - Polşa - 0:1 (0:0)**
**Qol:** Yan Bednarek, 59
**Sarı vərəqə:** Tomaki Makino, 66
**Hakimlər:** Canni Sikazu (Zambiya), Zahele Sivela (CAR), Jerson Duş Santuş (Anqola)
***28 iyun. Volqoqrad. "Sentral stadionu", 42189 tamaşaçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1.Kolumbiya* | 3 | 2 | 0 | 1 | 5:2 | 6 |
| *2.Yaponiya* | 3 | 1 | 1 | 1 | 4:4 | 4 |
| *3.Seneqal* | 3 | 1 | 1 | 1 | 4:4 | 4 |
| *4.Polşa* | 3 | 1 | 0 | 2 | 2:5 | 3 |

**Qeyd:** Yaponiya Seneqalı feyr-pley xallarına görə qabaqlayıb.

H qrupunun digər oyunu səkkizdəbir finala çıxmaq şansını itirən Polşa ilə Yaponiya komandaları arasında keçirilib. Görüş Polşa millisinin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Bu məğlubiyyətə baxmayaraq, Yaponiya növbəti mərhələyə vəsiqə qazanıb.

Seneqal və Yaponiya komandalarının həm xalları (4 xal), həm də top fərqi (0-0) bərabər olduğu üçün FİFA-nın qaydalarına görə sarı kart sayı nəzərə alınıb. Sarı kartların sayı daha az olan Yaponiya pley-off mərhələsinə adlayıb.

### "Qırmızı şeytanlar" "şirləri" tora saldılar

**G qrupu**

**III tur**

**İngiltərə - Belçika - 0:1 (0:0)**
**Qol:** Adnan Yanuzay, 51
**Sarı vərəqələr:** Yuri Tilemans, 19; Leander Dendonker, 33
**Hakimlər:** Damir Skomina, Robert Vukan, Yure Praprotnik (hamısı Sloveniya)
***28 iyun. Kaliningrad. "Baltika Arena", 33973 tamaşaçı***

Günün növbəti oyunları G qrupunun iştirakçıları arasında keçirilib. Bu oyunlarla eyni zamanda qrup mərhələlərinin oyunlarına yekun vurulub. Kaliningraddakı "Baltika Arena"da təşkil olunan oyunda Belçika və İngiltərə komandaları üz-üzə gəliblər. Görüşdə belçikalılar 1:0 hesabı ilə qalib gəliblər. Oyunda Belçika yığmasında yeganə qolun müəllifi Adnan Yanuzay olub. Beləliklə, bu qələbədən sonra Belçika millisi G qrupunun lideri kimi səkkizdəbir final mərhələsinə yüksəlib.

### "Xoşbəxt panamalılar" DÇ-nin hərarətinə dözmədilər

**Panama - Tunis - 1:2 (1:0)**
**Qollar:** Yassin Meriya, 33 (avtoqol) - Fəxrəddin Ben-Yussef, 51, Vahbi Xəzri, 66
**Sarı vərəqələr:** Rikardo Avila, 78; Qabriel Qomes, 80; Luis Teheda - Fercani Sassi, 44; Anis Badri, 71; Şalali Qilan, 90
**Hakimlər:** Navaf Şukralla, Yaser Tulefat (hər ikisi Bəhreyn), Taleb Əl Marri (Qətər), Mehdi Abid Şərif (Əlcəzair)
***28 iyun. Saransk, "Yubileyni" stadionu, 37168 tamaşçı***

| | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| *1. Belçika* | 3 | 3 | 0 | 0 | 9:2 | 9 |
| *2.İngiltərə* | 3 | 2 | 0 | 1 | 8:3 | 6 |
| *3.Tunis* | 3 | 1 | 0 | 2 | 5:8 | 3 |
| *4.Panama* | 3 | 0 | 0 | 3 | 2:11 | 0 |

G qrupundakı digər oyun səkkizdəbir finala çıxmaq şansını itirmiş Tunis və Panama komandaları arasında keçirilib. "Yubileyni" stadionunda təşkil olunan matç Tunis millisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Bu nəticəyə baxmayaraq, hər iki komanda mundialda mübarizəsini dayandırıb.

Qeyd edək ki, Belçika səkkizdəbir finalda Yaponiya ilə, İngiltərə yığması isə Kolumbiya millisi ilə qarşılaşacaq.






### Dünya çempionatının qrup mərhələsi: 48 oyun, 122 qol

Futbol üzrə dünya çempionatında ötən gün keçirilən İngiltərə-Belçika və Panama-Tunis matçları ilə qrup mərhələsinə yekun vurulub. Səkkiz qrupda 32 komandanın mübarizə apardığı mundialın qrup mərhələsində ümumilikdə 48 qarşılaşma oynanılıb.

Qrup mərhələsində 48 qarşılaşmada qapılara 122 top vurulub. Məhsuldarlıq hər oyuna orta hesabla 2,5 qol təşkil edir. Qrup mərhələsində ən məhsuldar futbolçu İngiltərə yığmasının hücumçusu Harri Keyndir. Onun aktivində 5 qol var. "Tottenhem"in hücumçusu bu qollardan ikisini Tunis, üçünü isə Panama yığmasının qapısından keçirib. İngilis futbolçunu 4 qolla portuqaliyalı Kriştianu Ronaldo və belçikalı Romelu Lukaku təqib edirlər. Rusiyalı Deniş Çerişev və ispaniyalı Dieqo Kosta üç dəfə fərqləniblər. Bu futbolçuların yer aldığı komandalar səkkizdəbir finala vəsiqə qazandığından onlar öz göstəricilərini daha da yaxşılaşdıra bilərlər.

Xatırladaq ki, Harri Keyn və Romelu Lukaku 1986-cı ildəki dünya çempionatında Maradonadan sonra ilk dəfədir ardıcıl iki oyunda dubl ediblər.

Bu çempionatda ən maraqlı göstəricilərdən biri də qeydə alınan 122 qolun 27-sinin (22 faiz) son on dəqiqədə və artırılan vaxtda vurulmasıdır. Neymarın Braziliya-Kosta-Rika görüşünün 90+7-ci dəqiqəsində rəqib komandanın qapısından keçirdiyi top mundiallar tarixində ən gec vurulan qol kimi qeydə alınıb. Ümumiyyətlə, XXI dünya çempionatının qrup mərhələsində statistik göstəricilərə görə ən yaxşı nəticə Belçika millisinə məxsusdur. Bütün görüşləri qələbə ilə başa vuran belçikalılar rəqib qapılarına 9 top vurub, öz qapılarında isə cəmi iki qol görüblər. Qrup mərhələsinin ən məhsuldar görüşü də (7 qol) Belçika yığmasının Tunis millisi ilə keçirdiyi görüşdə qeydə alınıb. Həmin görüşdə belçikalılar 5:2 hesabı ilə qalib gəliblər.

Öz qapısından top buraxmayan yeganə komanda ikiqat dünya çempionu Uruqvay yığmasıdır. Belçikadan əlavə, Xorvatiya və Uruqvay milliləri də bütün görüşləri qələbə ilə başa vurublar.

Qrup mərhələsində Belçika ən çox qol vuran (9), Almaniya ən çox hücum edən (252), İspaniya ən yaxşı ötürmə edən (2089), İran isə ən yaxşı müdafiə olunan (149) komanda olub. Futbolçular üzrə göstəricilərə gəldikdə isə, qol cəhdinə görə ən çox fərqlənən braziliyalı Neymar olub - 17 dəfə. Ən çox məsafə qət edən oyunçu danimarkalı Kristian Eriksen (36 km), ən çox ötürmə edən almaniyalı Toni Kroos (310), ən çox zərbə dəf edən qapıçı isə meksikalı Gilyermo Oçoadır (17).

Futbol tarixində ilk dəfə videonəzarət sistemindən (VAR) istifadə olunduğu bu çempionatın qrup mərhələsində qapılara 24 dəfə on bir metrlik cərimə zərbəsi təyin edilib ki, bu da rekord göstəricidir. Belə ki, bundan əvvəl bir çempionatda ən çox 11 metrlik cərimə zərbəsinin sayı cəmi 18 olub.

Tunis millisinin üzvü Faxreddin Ben Yussefin Panama ilə görüşün 51-ci dəqiqəsində vurduğu top futbol üzrə dünya çempionatları tarixində 2500-cü qol olub. Argentina-Nigeriya oyununun 14-cü dəqiqəsində Lionel Messi XXI dünya çempionatının 100-cü qolunun müəllifi kimi tarixə düşüb.

Mundialda Avropanı təmsil edən milli komandalardan dördü - Almaniya, Polşa, İslandiya və Serbiya qrup mərhələsində mübarizəni dayandırıb. Almaniya dünya çempionatları tarixində ilk dəfə qrupdan çıxa bilməyib. Cənubi Amerikadan bu mundialda çıxış edən beş komandadan dördü səkkizdəbir finala yüksəlib. Mundialda debüt edən Panama yığması qrupda mübarizəni dayandırıb. Afrika qitəsini təmsil edən bütün milli komandalar qrupdan çıxa bilməyiblər.

### Növbəti mərhələ, favoritlərin ardıcıl məğlubiyyəti

**1/8 final**

**Fransa - Argentina - 4:3 (1:1)**
**Qollar:** Antuan Qrizmann, 13 (pen.); Benjamin Pavard, 57; Kilian Mbappe, 64, 68 - Anxel Di Mariya, 41; Qabriel Merkado, 48; Serxio Aquero, 90+3
**Sarı vərəqələr:** Blez Matuidi, 72; Benjamin Pavar, 73; Olivye Jiru, 90+3 - Markos Roxo, 11; Nikolas Talyafiko, 19; Xavyer Maskerano, 43; Ever Baneqa, 50; Nikolas Otamendi, 90+3
**Hakimlər:** Alirza Fəqani,Reza İbrahim Sokandan, Mohammedreza Mansuri (hamısı İran)
***30 iyun. Kazan, "Kazan Arena", 42873 tamaşaçı***

(ardı 5-ci səhifədə)




# DÇ-2018: Ulduzlarla vidalaşan azarkeşlər, məqsədinə çatmayan iddialılar

## *Dünya kubokunu heç kimin inanmadığı komanda qazanacaq*

*(əvvəli 4-cü səhifədə)*

Dünya çempionatının qrup mərhələsindən sonra bəzi favoritlər mübarizəni dayandırdılar. Bu komandaların sırasına isə son dünya çempionları Almaniya, Misir, Seneqal, Polşa, Nigeriya millilərini əlavə etmək olar. Bir günlük fasilədən sonra iyunun 30-da mundialın 1/8 final oyunlarına start verilib.

Dünya çempionatı başlamamışdan əvvəl turnirin əsas favoritlərindən hesab olunan iki komanda ilk 1/8 final mübarizəsində üz-üzə gəlib. C qrupunda Danimarka, Peru və Avstraliya ilə mübarizəni lider tamamlayan Fransa D qrupunun ikincisi Argentina ilə qarşılaşıb.

Çempionatın favoritlərindən hesab olunan Argentina yığması yer aldığı D qrupunda göstərdiyi oyunla azarkeşlərinin istəyinə cavab verə bilməyib. İlk oyunda çempionatın debütantı İslandiya ilə 1:1 hesablı heç-heçə edən argentinalılar ikinci görüşdə Xorvatiya yığmasına məğlub olublar - 0:3. "Gümüşü ölkə" təmsilçiləri səkkizdəbir finala Nigeriya üzərində 2:1 hesablı çətin qələbə sayəsində çıxa biliblər.

Müasir dünya futbolunun ən güclü oyunçularını qarşı-qarşıya gətirən Fransa - Argentina oyunu bol qollu alınıb. "Kazan Arena"da keçirilən görüşdə Fransa millisi 4:3 hesabı ilə qalib gələrək dördəbir finalın ilk iştirakçısı olub. Ümidləri doğrultmayan hazırkı dünya çempionatının ən yaşlı komandası Argentina millisi isə mundialla vidalaşıb.

İranlı referi Alireza Faqaninin idarə etdiyi oyunda hesabı 13-cü dəqiqədə Fransa yığması açıb. Fransızların sürətli əks-hücumu zamanı gözəl dribling edərək argentinalıların cərimə meydançasına daxil olan Kilyan Mbappenin qarşısı kobudluqla alınıb. Argentina yığmasının qapısına təyin olunan 11 metrlik cərimə zərbəsini Antuan Qrizman dəqiq yerinə yetirib - 1:0.

Bu qoldan sonra hesabı bərabərləşdirmək üçün irəli atılan argentinalılar 41-ci dəqiqədə istəklərinə çatıblar. Anhel Di Marianın uzaq məsafədən qüvvətli zərbəsini qapıçı Uqo Lloris dəf edə bilməyib - 1:1.

Oyunun ikinci hissəsinin əvvəlində - 48-ci dəqiqədə "gümüşü ölkə" təmsilçiləri hesabda irəli çıxıblar. Lionel Messinin qapıya vurduğu top argentinalı Qabriel Merkadoya toxunaraq istiqamətini dəyişib və qapıya daxil olub - 1:2.

Bu qoldan sonra oyunda təşəbbüsü ələ alan Fransa yığması ardıcıl üç dəfə fərqlənib. Belə ki, 57-ci dəqiqədə Benjamin Pavardın qüvvətli zərbəsi dəqiq olub - 2:2. Oyunun 64-cü və 68-ci dəqiqələrində dubl edən Kilyan Mbappe hesab arasındakı fərqi iki topa çatdırıb - 4:2.

Lakin bu da oyunda sonuncu qol olmayıb. Oyunun əsas vaxtına artırılan hissənin 3-cü dəqiqəsində Serxio Aqüero bu qollardan birinin əvəzini çıxıb - 4:3.

Beləliklə, XXI dünya çempionatının səkkizdəbir final mərhələsinin ilk oyununda 4:3 hesabı ilə qalib gələn Fransa yığması dördəbir finala yüksələn ilk komanda olub. Argentina yığması isə mundialda mübarizəni dayandırıb.Fransa komandasının futbolçusu Kilyan Mbappe Argentina ilə oyunun ən yaxşı oyunçusu hesab olunub.

Qeyd edək ki, bu rəqiblərin XXI əsrdə hər iki qarşılaşmasında cənubi amerikalılar qələbə qazanıblar. 2007-ci ildə 1:0, 2009-cu ildə isə 2:0 hesablı nəticə qeydə alınıb. Maraqlıdır ki, 9 il əvvəl Marseldəki yoldaşlıq görüşündə heyətində Xavyer Maskerano və Serxio Agüeronun da yer aldığı Argentinanın ikinci qolunu məhz Messi vurub, komandanın baş məşqçisi isə əfsanəvi Dieqo Maradona olub.



### Ronaldu təkbaşına möcüzə yarada bilmədi

***1/8 final***

**2-ci oyun**

**Uruquay - Portuqaliya - 2:1 (1:0)**
**Qollar:** Edinson Kavani, 7, 62 - Pepe, 55
**Sarı vərəqə:** Kriştianu Ronaldo, 90+3
**Hakimlər:** Sezar Arturo Ramos, Marvin Torrentera, Migel Anhel Ernandes (hamısı Meksika)
***30 iyun. Soçi. "Fişt Stadionu", 44287 tamaşaçı***

Futbol üzrə XXI dünya çempionatının səkkizdəbir final mərhələsinin ikinci oyununda Uruqvay və Portuqaliya yığmaları qarşılaşıblar.Qrupu qol buraxmadan və məğlub olmadan lider kimi bitirən ilk dünya çempionu Uruqvay bu uğurunu pley-offda da davam etdirib. Cənubi Amerika təmsilçisi 1 qol buraxmayaraq, qələbə qazanmağı bacarıb. Soçidəki "Fişt" stadionunda oynanılan görüşdə Uruqvay yığması 2:1 hesabı ilə qalib gələrək dördəbir finala ikinci vəsiqənin sahibi olub.

Meksikalı referi Sezar Ramosun idarə etdiyi oyunda ikiqat dünya çempionları hesabı erkən qolla açmağa müvəffəq olublar. Matçın 7-ci dəqiqəsində Luis Suaresin dəqiq ötürməsini Edinson Kavani baş zərbəsi ilə rəqib qapısından keçirib - 1:0.İlk hissə bu hesabla başa çatıb. Fasilədən sonra təzyiqi artıran Portuqaliya yığması 55-ci dəqiqəsində hesabı bərabərləşdirib. Küncdən zərbə ilə başlanan hücumda Gerreironun hava ötürməsini Pepe qola çevirib - 1:1. Lakin portuqaliyalıların sevinci cəmi yeddi dəqiqə davam edib. Rəqibi sürətli əks-hücumda yaxalayan Uruqvay millisi yenidən hesabda irəli çıxıb. Bentankurun ötürməsindən sonra topu saxlamadan qapıya göndərən Edinson Kavani baxımlı qolla dubla imza atıb. Bu, oyunda sonuncu qol olub.Bununla da Lionel Messi və Kriştianu Ronaldo eyni gündə mundialla vidalaşıb.



Məlumat üçün bildirək ki, Uruqvay millisinin hücumçusu Edinson Kavani Portuqaliya komandasına qarşı səkkizdəbir final qarşılaşmasının ən yaxşı oyunçusu hesab edilib.

Beləliklə, Portuqaliya millisinə 2:1 hesabı ilə qalib gələn Uruqvay yığması dördəbir finala vəsiqə qazanıb. Bu mərhələdə onların rəqibi Argentina millisini 4:3 hesabı ilə məğlub edən Fransa olacaq.Nijniy Novqorodakı "Volqa Arena"da keçiriləcək həmin oyun iyulun 6-da Bakı vaxtı ilə saat 18:00-da başlayacaq.

### "Belə oyunla yalnız Rusiyaya uduzmaq olardı"

***1/8 final***

**3-cü oyun**

**İspaniya - Rusiya - 1:1 (1:1) (əlavə vaxt, penalti seriyası)**
**Qollar:** İqnaşeviç, 12 (avtoqol) - Dzyuba, 41 (pen.)
**Penalti seriyası:** 3:4
**Sarı vərəqələr:** Cerard Pike, 40 - İlya Kutepov, 54; Roman Zobnin, 71
**Hakimlər:** Byörn Küypers, Sander van Rukel, Ervin Zeynstra (hamısı Hollandiya)
***1 iyul. Moskva."Lujniki" stadionu, 78011 tamaşaçı***

İyulun 1-də Rusiyanın ev sahibliyi etdiyi futbol üzrə XXI dünya çempionatının daha bir dördəbir finalçısı müəyyənləşib.

Mundialın səkkizdəbir final mərhələsi çərçivəsində Moskvadakı "Lujniki" stadionunda Rusiya və İspaniya yığma komandaları üz-üzə gəliblər. Hollandiyalı baş hakim Byörns Küypersin idarə etdiyi oyunun 12-ci dəqiqəsində 38 yaşlı rusiyalı futbolçu Sergey İqnaşeviç avtoqolla İspaniya millisini hesabda önə çıxarıb. Birinci hissənin sonrarına yaxın Pikenin əllə oyununa görə, hakim İspaniya millisinin qapısına on bir metrlik cərimə zərbəsi təyin edib. Görüşün 41-ci dəqiqəsində Artyom Dzyuba zərbəni dəqiq vuraraq hesaba tarazlıq gətirib.

Matçın ilk hissəsi 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.

İkinci hissədə komandalar təhlükəli vəziyyətlər yaratsalar da, top qapıdan keçməyib və matçın əsas vaxtı 1:1 hesabı ilə başa çatıb.

Qalib müəyyənləşməsi üçün matçda əlavə vaxt oynanılıb. Əlavə vaxtda da komandalar fərqlənə bilməyiblər və qalibin kimliyi penalti seriyasında bəlli olub. Zərbələri dəqiq yerinə yetirən Rusiya millisi 4:3 hesabı ilə qalib gələrək dördəbir finala yüksəlib.Penalti seriyasında Koke və Yaqo Aspasın vurduğu zərbələri dəf edən Akinfeyev komandasının 1/4 final mərhələsinə çıxarıb.Qeyd edək ki, Rusiya millisinin baş məşqçisi Stanislav Çerçesov dünya çempionatları tarixində ilk dəfə dördüncü əvəzetmədən istifadə edib.

Bu oyunadək komandalar 6 dəfə üz-üzə gəliblər. Dörd dəfə qələbə qazanan İspaniya millisi, 2 dəfə meydanı heç-heçə ilə tərk edib.

### Qəhrəman Şmeyxelin "dinamit"i "damalılar"a təsir etmədi

***1/8 final***

**4-cü oyun**

**Xorvatiya - Danimarka - 1:1 (1:1)(əlavə vaxt, penalti seriyası)**
**Qollar:** Mario Mandzukiç, 4 - Matias Yorgensen, 2.
**Penalti seriyası:** 3:2
**Sarı vərəqə:** Matias Yorgensen, 115.
**Baş hakim:** Nestor Pitana, Sander Van Rukel, Ervin Zeinstra (hamısı Argentina)
***1 iyul. Nijni Novqorod. "Volqa Arena", 40851 tamaşaçı***

Günün ikinci qarşılaşması Xorvatiya ilə Danimarka arasında oynanılıb. Bu qarşılaşma da özündən əvvəlkinin ssenarisi ilə davam edib. Oyunun ilk 4 dəqiqəsində komandalar hərəyə bir dəfə fərqləniblər. Argentinalı baş hakim Nestor Pitananın idarə etdiyi oyunda hesab birinci dəqiqədə açılıb. Danimarkalı Matias Yorqensen fərqlənib. Üç dəqiqə sonra xorvatiyalı Mario Mandzukiç bərabərlik qolunu vurub. Komandaların cəhdlərinə baxmayaraq, oyunun ilk hissəsində hesab dəyişməyib - 1:1. Qarşılıqlı hücumlar şəraitində keçən ikinci hissədə futbolçular fərqlənməyi bacarmayıblar və matç 1:1 hesabı ilə heç-heçə başa çatıb. Koimandalar oyuna əlavə olunmuş 30 dəqiqə ərzində də qapıların möhürünü qıra bilməyiblər. Hətta 115-ci dəqiqədə Luka Modriç penalti zərbəsindən yararlana bilməyib. Kasper Şmeyxel qola icazə verməyib.

Penaltilər seriyası isə qapıçıların şousu ilə yadda qalıb. Şmeyxel burda da rəqibin iki zərbəsinin qarşısını alsa da, onun qarşı tərəfdəki həmkarı Subaşiç daha çox - 3 dəfə yaxşı oynayıb və komandasını 1/4 finala daşıyıb. Beləliklə, onbirmetrlik cərimə zərbələrini daha dəqiq yerinə yetirən Xorvatiya millisi 3:2 hesabı ilə qalib gələrək növbəti mərhələyə adlayıb.

Xorvatiya millisi dördəbir finalda iyulun 7-də Soçidə Rusiya yığması ilə qarşılaşacaq.

Xatırladaq ki, D qrupunda Nigeriya (2:0), Argentina (3:0) və İslandiyaya (2:1) hesabı ilə qalib gələn xorvatiyalılar 9 xalla qrupu ilk sırada başa vurublar. Danimarka millisi isə Peruya 1:0 hesabı ilə qalib gələrək, Avstraliya (1:1) və Fransa (0:0) ilə heç-heçə edərək 5 xalla Cqrupunda ikinci olub.

Mundialın dördəbir final mərhələsinin görüşləri iyulun 6-7-də, yarımfinal matçları isə iyulun 10-11-də oynanılacaq. Üçüncü yer uğrunda görüş iyulun 14-də, final qarşılaşması isə iyulun 15-də keçiriləcək.

## DÇ xəbərləri

### Andres İnyesta İspaniya millisi ilə vidalaşdı

"Barselona"nın sabiq futbolçusu və hazırda Yaponiyanın "Vissel Kobe" klubunda forma geyinən Andres İnyesta İspaniya milli komandasındakı çıxışını rəsmən başa vurub.34 yaşlı yarımmüdafiəçi bu qərarı dünya çempionatında səkkizdəbir finalda Rusiyaya millisinə yenilərək mübarizəni dayandırdıqları oyundan sonra açıqlayıb. A.İnyesta milli karyerasında son oyuna çıxdığını bildirib: "Həyatımın möcüzəvi fəsli başa çatdı. Təəssüf ki, bəzən hər şey arzuladığımız kimi yekunlaşmır. İspaniya yığması yenidən uğura yol tapmalıdır. Göründüyündən daha çətin olsa da, bunu koman-



damız bacarar". Qeyd edək ki, Andres İnyesta İspaniya yığmasında 2006-cı ildən çıxış edir. O, millidəki 136 oyununda 13 qol və 27 məhsuldar ötürmə verib. Andres 2010-cu ildə İspaniya yığmasının heyətində dünya çempionu və 2008-ci, 2012-ci illərdə ikiqat Avropa çempionu olub.

### Qrup mərhələsinin simvolik heyəti açıqlanıb

Rusiyada təşkil olunan futbol üzrə dünya çempionatının qrup mərhələsinin simvolik heyəti açıqlanıb. Dünya çempionatının qrup mərhələsinin simvolik heyətində qapıçılardan Əlireza Beyranvand (İran), müdafiəçilərdən Manuyel Akanci (İsveçrə), Dieqo Qodin (Uruqvay), Andreas Qranqvist (İsveç), yarım-




müdafiəçilərdən Kiran Treppyer (İngiltərə), İsko (İspaniya), Luka Modriç, İvan Rakitiç (hər ikisi - Xorvatiya), Aleksandr Qolovin (Rusiya), hücumçulardan isə Harri Keyn (İngiltərə) və Romelu Lukaku (Belçika) yer alıblar.

Qeyd edək ki, simvolik heyətdə yer alan yeganə oyunçu Əlireza Beyranvanddı ki, milli komandası mundialın qrup mərhələsində mübarizəsini dayandırıb.

Hari Keyn qrup mərhələsinin ən çox fərqlənən oyunçusudur. O, üç oyunda beş qol vurub. Romelu Lukaku isə dörd qolla ikincidir.




## Millidə islahatlar başladı

DÇ-2018-lə 1/8 finalda vidalaşan Argentina millisində bir sıra ayrılıqlar olub. Fransaya 3:4 hesablı məğlubiyyətlə evə dönməyə məcbur olan "tanqoçular" gözlənildiyi kimi baş məşqçi ilə yollarını ayırıb. Argentina Futbol Assosiasiyasının (AFA) rəhbərliyi baş məşqçisi Xorxe Sampaolini istefaya göndərib. 58 yaşlı mütəxəssis bu barədə məlumatlandırılıb.

Ayrılıq tək baş məşqçi ilə yekunlaşmayıb. Belə ki, Fransaya məğlubiyyətdən sonra futbolçular Lukas Bilya və Xavyer Maskerano da Argentina yığması ilə vidalaşdıqlarını açıqlayıblar.




Qeyd edək ki, Xorxe Sampaoli ilə 2017-ci ildə bağlanılmış müqavilə 5 ilədək nəzərdə tutulmuşdu.

## Mbappe Pelenin nəticəsini yenilədi

Fransa millisinin hücumçusu Kilyan Mbappe əfsanəvi braziliyalı futbolçu Pelenin rekordunu təkrarlayıb. O, buna dünya çempionatının 1/8 final mərhələsində Argentina ilə qarşılaşmada nail olub. Belə ki, matçda dubl edən Mbappe 1958-ci ildən bəri bunu bacaran ən gənc oyunçu olub. Sonuncu dəfə DÇ-1958-də məhz Pele İsveçlə qarşılaşmada rəqibi 2 dəfə mərkəzə dəvət etmişdi. Pele bunu 17 yaş 8 aylığında etmişdisə, Mbappe 19 yaş 6 aylığında mundialda dubl sevinci yaşayıb.

## Mundiallarda 2500-cü qol

Tunis millisinin futbolçusu Fəxrəddin Ben-Yussef DÇ-lərin tarixinə düşüb. Hücumçu mundiallarda 2500-cü qolu vurub. Afrikalı DÇ-2018-in qrup mərhələsinin son turunun Panama ilə görüşünün 51-ci dəqiqəsində tarixi qola imza atıb. O, komandasının 2:1 hesablı qələbə qazandığı matçda bərabərlik qoluna imza atıb.



1-ci qol. Lüsyen Loren (Fransa, DÇ-1930)
500-cü qol. Bobbi Kollinz (Şotlandiya, DÇ-1958)
1000-ci qol. Rob Rensenbrink (Hollandiya, DÇ-1978)
1500-cü qol. Klaudio Kanica (Argentina, DÇ-1994)
2000-ci qol. Markus Olbak (İsveç, DÇ-2006)
2500-cü qol. Fəxrəddin Ben-Yussef (Tunis, DÇ-2018)

## Meksikadan Cənubi Koreyaya görə 20 faizlik endirim

Meksika İsveçlə oyunda qeydə alınan 0:3 hesablı məğlubiyyətə baxmayaraq, Cənubi Koreyanın Almaniyaya qalib gəlməsi (2:0) nəticəsində 1/8 finala yüksəlib. "Aeromexico" aviaşirkəti Cənubi Koreyaya səfər etmək niyyətində olan sərnişinlər üçün xüsusi aksiyaya start verib.

Bu istiqamətdə uçuşların qiymətinə 20 faiz endirim elan olunub. Aviaşirkət bu üsulla Almaniya üzərindəki qələbəyə görə Cənubi Koreyaya minnətdarlığını bildirib.

İyul ayının 1-dən etibarən biletləri əldə etmək mümkün olacaq. Endirim il boyu davam edəcək.

## Ramos Kasilyasa çatdı

DÇ-2018-in 1/8 final mərhələsinin Rusiya ilə oyunu Serxio Ramos üçün əlamətdar olub. 32 yaşlı oyunçu milli komanda ilə mundiallarda ən çox meydana çıxan oyunçu rekorduna şərik olub. DÇ-də 17-ci dəfə yığmanın formasını geyinən Ramos bununla da İker Kasilyasa çatıb.

İspaniya yığması isə İqnaşeviçin 12-ci dəqiqədə öz qapısına vurduğu qolla bütün turnirlərdə ardıcıl 23-cü oyunda da qolsuz qalmayıb və rekorda imza atıb.



## FİFA Maradona ilə əməkdaşlığa son qoydu

FİFA əfsanəvi futbolçu Dieqo Armando Maradona ilə əməkdaşlığa son qoyub. Buna səbəb argentinalı futbolçunun davranışıdır. Məsələ burasındadı ki, qrup mərhələsinin axırıncı turunda Argentinanın Nigeriya üzərində qələbə qazandığı qarşılaşmanın sonlarında Maradona afrikalı azarkeşlərə tərəf orta barmağını göstərib. Ali futbol qurumu da bu üzdən onunla əməkdaşlığa son qoyub. Üstəlik, növbəti belə halın təkrarlanması 57 yaşlı mütəxəssisin tribunalara buraxılmaması ilə nəticələnə bilər.

Qeyd edək ki, FİFA Argentinanın hər oyununu tribunadan izləməsi üçün Maradonaya 11 min 300 avro ödəyirdi.



## Ronaldodan daha bir yenilik

DÇ-2018-in 1/8 final mərhələsində Uruqvayla matça start heyətində başlayan Kristianu Ronaldo şəxsi rekordlarına birini də əlavə edib. Portuqaliya millisinin hücumçusu həmin oyunla birlikdə karyerasının 38-ci Avropa və dünya çempionatı matçına çıxıb. Bununla da Ronaldo Almaniya millisinin keçmiş yarımmüdafiəçisi Bastian Şvaynştaygerin rekordunu təkrarlayıb. Kristiano bu matçlardan 17-ni dünya çempionatında, 21-ni isə qitə birinciliyində keçirib. Şvaynştaygerdə isə bu göstərici uyğun olaraq 18 və 20-dir.

Dünya və Avropa birinciliklərində ən çox qol vuran oyunçu rekordu isə Miroslav Klozedə qalıb. Almaniyalı 19 qolla zirvədədir. Ronaldo isə qollarının sayını 16-a çatdıraraq 3-cü pillədə Yürgen Klinsmana ortaq olub. İkinci pilləni də daha bir almaniyalı - Herd Müller zəbt edib (18 qol).

Ronaldo bu qollardan 9-nu Avropa, 7-ni isə dünya çempionatında vurub.



## Ən çox azarkeş "Fişt" stadionuna toplaşıb

DÇ-2018 çərçivəsində iyunun 23-də Soçinin "Fişt" stadionunda F qrupu üzrə Almaniya-İsveç matçını 44 min 287 tamaşaçı izləyib. Bu rəqəm stadion üçün çempionat keçirildiyi dövrdə rekord göstəricidir. Əvvəlki yüksək göstərici - 43 min 866 nəfər tamaşaçı iyunun 15-də Portuqaliya və İspaniya komandaları arasında olan oyunda qeydə alınıb.

Qeyd edək ki, "Fişt" stadionunun dünya çempionatında rəsmi tamaşaçı tutumu 44 min 287 nəfərlikdir.

## Məhəmməd Salah Çeçenistanın fəxri vətəndaşı seçildi

Misir yığmasının hücumçusu Məhəmməd Salah Çeçenistanın fəxri vətəndaşı seçilib. Bu barədə respublikanın başçısı Ramazan Kadırov VK hesabında paylaşım edib. "Məhəmməd Salah - Çeçenistan Respublikasının fəxri vətəndaşıdır. Misir millisi və "Liverpul"un böyük futbolçusunun bu ada layiq görülməsiylə bağlı fərman vermişəm. Misir yığmasının şərəfinə təşkil olunan yeməkdə isə ona fərmanın surətini və rozet təqdim etdim. Salah bu ada layiqdi. Minlərlə uşaq, yeniyetmə, həmçinin yaşlı nəslin nümayəndələri dünyanın ən yaxşı futbolçularından birini görmək, onunla ünsiyyətdə olmaq imkanı əldə etdi", - deyə Ramazan Kadırov vurğulayıb.

## FİFA "Rus drujinası"nı cərimələyib

FİFA Rusiya Futbol Birliyini 10 min isveç frankı həcmində cərimələyib. Cərimə Rusiya-Uruqvay oyunu zamanı ayrı-seçkilik banneri ilə əlaqədar olub.

Həmçinin FİFA Serbiya Futbol Federasiyasını Braziliya oyunu zamanı "siyasi və təhqiredici banner" ilə bağlı 20 min frank həcmində cərimələyib. Meksika Federasiyası İsveçlə oyun zamanı azarkeşlərin meydana əşya atması səbəbindən 15 min frank cərimə ödəyəcək.

Həmçinin Mərakeş də final fitindən sonra texniki heyətin meydana çıxmasına və azarkeşlərin futbol meydançasına əşya atdığına görə 65 min frank cərimə ödəyəcək.

## "Əjdahalar" yumurta atəşinə tutuldular

Cənubi Koreya millisi DÇ-2018 çərçivəsində Almaniya yığması üzərində tarixi qələbə qazansa belə, komandanın mundialla erkən vidalaşması vətənlərində birmənalı qarşılanmayıb.

Milli komandanın üzvləri geri dönən kimi "İnçxon" beynəlxalq hava limanında jurnalistlərin qarşısına çıxıb.

Əsəbi azarkeşlərdən biri komanda üzvlərini yumurta atəşinə tutub.

Xatırladaq ki, oxşar vəziyyət Cənubi Koreyanın DÇ-2014-dəki çıxışından sonra da yaşanmışdı. Həmin vaxt aeroportda, qrup oyunlarında cəmi bir xal toplayan koreyalı futbolçuların üzərinə konfetlər atılmışdı.

Konfet atılması Koreya adət-ənənələrinə ən böyük təhqirlərdən sayılır.

## Qrup mərhələsində dəyişən rəqəmlər

Rusiyada keçirilən DÇ-2018-in başa çatan qrup mərhələsi bir sıra rekordlarla əlamətdar olub. Mundialın arxada qalan 48 oyunu ilə turnir yarışın tarixinə bir neçə kateqoriyada düşüb. FİFA-nın rəsmi interenet səhifəsində maraqlı nəticələr öz əksini tapıb.

### 24 dəfə qapıçı ilə üz-üzə

Rusiyadakı çempionatda artıq 24 dəfə 11 metrlik cərimə zərbəsi təyin olunub. VAR sisteminin də rolu olan bu göstərici 1990, 1998 və 2002-ci illərdəki rekordu çoxdan kölgədə qoyub. Həmin mundiallarda 18 penalti təyin edilib.

### 9 dəfə öz qapısını səhv salanlar

İndiyədək bir dünya çempionatında ən çoxu 7 dəfə futbolçular öz qapısına qol vurmuşdular. Bu göstərici 1998-ci ildə qeydə alınmışdı. DÇ-2018-də bu say 9-a bərabər olub. Artıq həmin rekord arxada qalıb.

### Dəyişməyən "sıfır"lar

Mundialda ilk qolsuz oyun 38-ci matça təsadüf edib. Eyni çempionatın ardıcıl 37 qarşılaşmasında qol vurulması isə yeni rekorddu. İndiyədək rekord DÇ-1958-ə aid idi. Həmin vaxt 27 görüşdə "sıfırlar" qeydə alınmamışdı.

### Yorulmayan qoca

Misir millisinin futbolçusu Əsam Əl-Hadari mundiallar tarixinə ən yaşlı futbolçu kimi düşüb. 45 yaşlı qolkiper komandasının Səudiyyə Ərəbistanı ilə formal xarakter daşıyan son matçında meydana çıxıb.

### 32 komandanın hər biri ən azı 2 qol buraxıb

DÇ-2018 ikidən az qol vuran komanda olmayıb. Bu isə mundiallar tarixində görünməmiş nəticədi. Rekord qrup mərhələsinin son günündə Panama Tunisə qol vuranda rəsmiləşib.

*Xüsusi buraxılışı hazırladılar:*
*Anar Əhmədov,*
*Azər Əlizadə*




# Bakı şəhər açıq turnirində 300-dən çox idmançı yarışıb

Şağan Olimpiya İdman Kompleksində Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubiley münasibətilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri olmuş Xosrov bəy Sultanovun xatirəsinə həsr edilmiş alpaqut turan döyüş sənəti üzrə Bakı şəhər açıq turniri keçirilib. Yarış Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən təşkil olunub. Turnirdə 300-dən çox idmançı mübarizə aparıb.Gərgin mübarizə şəraitində keçən yarışda 13 çəki dərəcəsi üzrə qalib və mükafatçılar müəyyənləşib.

İlk üç yeri tutan idmançılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom medal və kubokla təltif olunublar.

# "Qarabağ" yoldaşlıq görüşündə gücünü sınayıb

Ağdamın "Qarabağ" futbol klubu Avstriyada təlim-məşq toplanışı çərçivəsində üçüncü yoxlama matçını keçirib.

Komandamız Suriya millisi ilə qarşılaşıb və rəqibinə 0:1 hesabı ilə məğlub olub.

"Qarabağ" növbəti yoxlama oyununu iyulun 4-də Ukraynanın "Dinamo Kiyev" komandasına qarşı keçirəcək.

Qeyd edək ki, təlim-məşq toplanışı çərçivəsində "Qarabağ" Bolqarıstanın "Ludoqorets" komandası ilə 1:1, Avstriyanın "Vakker İnsbruk" klubu ilə 0:0 hesablı heç-heçə edib.

# Yığmalarımız yoxlama oyununda qarşılaşıblar

Bakıda təlim-məşq toplanışında olan 17 və 16 yaşınadək futbolçulardan ibarət Azərbaycan yığma komandaları yoxlama oyununda üz-üzə gəliblər. Qarşılaşma U-17-nin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Qolları Veysəl Rzayev və Emil Quluzadə vurublar.

# Övladına görə düşərgəni tərk etdi

İngiltərə millisinin yarımmüdafiəçisi Fabian Delf yığmanın düşərgəsini tərk edərək vətənə dönüb. Buna səbəb övladının dünyaya gəlməsidir. Ata olduğunu öyrənən futbolçu DÇ-2018-də iştirak edən komandasını tərk edərək İngiltərəyə yollanıb.

Məlumat üçün bildirək ki, İngiltərə yığması iyunun 28-də Belçikaya yığması ilə qarşılaşıb və 0:1 hesabıyla uduzub. 90 dəqiqə meydanda olan Delf məhz həmin oyundan sonra düşərgəni tərk edib. 28 yaşlı futbolçunun yaxın günlərdə yenidən millinin düşərgəsinə qayıtması gözlənilir.



# Millətlər Liqasında qalib bəlli oldu

Qadın voleybolçular arasında Millətlər Liqasının Çində keçirilən final mərhələsi başa çatıb. Turnirin final və üçüncü yer uğrunda oyunları keçirilib. İlk matç Braziliya ilə Çin arasında oynanılıb. Hər üç setdə üstün olan meydan sahibləri 3:0 hesablı qələbə qazanmağa müvəffəq olublar. Bununla da turnirin bürünc medalını çinlilər qazanıb.

Finalda isə Azərbaycan yığmasının DÇ-2018-dəki rəqibi ABŞ Türkiyə ilə üz-üzə gəlib. Azarkeşlər bu dəfə maraqlı oyuna tamaşa ediblər. Tay-brekə qədər davam edən oyunda amerikalılar 3:2 hesablı qələbəyə seviniblər.

**Millətlər Liqası**

**1 iyul**

***3-cü yer uğrunda oyun***

Braziliya - Çin - 0:3 (18:25, 22:25, 22:25)

**Final**

Türkiyə - ABŞ - 2:3 (25:17, 22:25, 28:26, 15:25, 7:15)

# *Formula-1-in yeni mövsümünün tarixi açıqlanıb*

2019-cu ildə Formula-1-in ilk mərhələsi olacaq Avstraliya Qran-Prisinin təşkilatçıları Melburnda keçiriləcək yarışların ilkin tarixini açıqlayıblar. Dünya Avtomobil İdmanı Şurası onların bu qərarını təsdiqləyərsə, yürüşlər martın 14-dən 17-dək keçiriləcək.

Bu mərhələ formula-1 yarışlarında mövsümün ən tez başlanğıc günü olacaq. Avstraliya Qran-Prisinin başlanma tarixi dünya çempionatının Birləşmiş Ştatların Sebrinq şəhərində keçiriləcək WEC marafon yarışları ilə eyni vaxta düşür. WEC-2018/19 "supermövsüm"ünə "Toyota" komandasında gedən ispaniyalı Fernando Alonso Formula- 1-də karyerasını davam etdirərsə, bu iki yarış arasında seçim etməli olacaq.




***Sumqayıt xəbərləri***

# Xatirə turnirinə start verildi



Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə iyulun 2-də M.Hüseynzadə adına stadionda Azərbaycan Respublikasının Əməkdar məşqçisi Tofiq Rzayevin xatirəsinə həsr edilmiş futbol üzrə 2009-2010-cu illər təvəllüdü yeniyetmələr arasında Respublika turnirinə start verilib.

Tədbirin açılış mərasimində çıxış edən şəhər Gənclər və İdman Baş İdarəsinin rəis əvəzi Mübariz Bəşirov, Şimal Regional Futbol Federasiyasının prezidenti Abdulla Məmmədov yarış iştirakçılarını və qonaqları salamlayaraq, T.Rzayevin futbol idman növünün təbliği, inkişafı və coğrafiyasının genişləndirilməsində xidmətlərindən danışıb, onlarla idmançının üzə çıxarılmasında və yetişdirilməsində müstəsna əməyi olduğunu qeyd ediblər.

Tofiq Rzayevin oğlu Rauf Rzayev atasının xatirəsinə həsr edilmiş turnirin təşkili və keçirilməsinə yaxından köməkliyə görə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinə, Sumqayıt şəhər İcra Hakimiyyəti və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası rəhbərliyinə, həmçinin yarışda iştirak edən komandalara ailə üzvləri adından dərin minnətdarlığını bildirib.

Turnirin qalib və mükafatçıları Baş İdarə tərəfindən fəxri fərman, medal, kubok və hədiyyələrlə təltif olunacaqlar.

* * *

Sumqayıt şəhər 2 saylı Uşaq-Gənclər İdman Şahmat Məktəbində 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr edilmiş şahmat üzrə kişi və qadınlar arasında şəhər çempionatına yekun vurulub.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qadınlar arasında Jalə Kərimli (6.5 xal) birinci yerə layiq görülüb. Diana Qurbanova (6 xal) ikinci, Səbinə Rzalı (6 xal) isə üçüncü yeri tutub. Kişilərin mübarizəsində isə Şövkət Səlimov (8 xal) bütün rəqiblərini üstələyib. Ceyhun Hüseynzadə (7, 5 xal) və Fərhad Fərhadlı (6,5 xal) müvafiq olaraq, ikinci, üçüncü yerlərə layiq görülüblər.

Yarışın qalib və mükafatçıları Gənclər və İdman Baş İdarəsinin fəxri fərman, medal və hədiyyələri ilə təltif olunublar.



*Müsahibə*

# "Hər səhər məşqə eyni həyəcanla gedirəm"

***Xəbər verdiyimiz kimi, may ayında Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində hərbçilər arasında güləş üzrə 33-cü dünya çempionatı keçirilib. Çempionatda iştirak edən yığma komandamızın üzvləri 2 qızıl, 3 gümüş, 6 bürünc medal qazanıblar.***

***Qızıl medalları yığmamıza qadın güləşi üzrə 65 kq-da mübarizə aparan Ceyla Nağızadə və yunan-Roma güləşi üzrə 77 kq-da yarışan Həsən Əliyev qazandırıb. Bu yaxınlarda xanım pəhləvanımız Ceyla Nağızadə redaksiyamızın qonağı olub.Güləşçimiz ona ünvanlanan sualları səmimi cavablandırıb.***



***- Ceyla xanım, əvvəlcə özün haqqında oxucularımıza məlumat verərdiniz.***

- 1999-cu il martın 8-də İmişli rayonunun Muradxanlı (Əlipənahlı) kəndində anadan olmuşam. Uşaqlıqdan idmana böyük həvəsim var idi. Məni kiçik yaşlarımdan oğlan kimi böyüdüblər. Qohumumuzun köməyi ilə yığma komandada məşqlərə başladım. Bir müddət məşq etdikdən sonra çiynim sındığına görə idmandan uzaqlaşdım. Zədəm sağalandan sonra yenidən məşqlərimi davam etdirdim. Zədədən sonra Seyid Hadı Ərəbinin köməyi ilə kəbbadə yarışında iştirak etdim. Bu yarışdan sonra sambo idman növündə də gücümü sınadım. Anam idmançı olmağıma razı deyildi. Mənim üçün çox narahat olurdu. Bu indi də belədir. Atam isə anamdan fərqli olaraq mənə çox dəstək olur, mənə inanır.

***- İstərdik ki, bir qədər nəticələrin barədə məlumat verəsiniz?***

- 2015-ci ildə Osetiyada təşkil olunan beynəlxalq turnirdə üçüncü yeri tutmuşam. Bundan başqa Rəşid Məmmədbəyov turnirində üçüncülüyü qazanmışam. 2014-cü ildə Hindistanda təşkil olunan dünya çempionatında 5-ci yerə sahib çıxmışam. Ötən il Almaniyada keçirilən gənclər arasında Avropa çempionatında isə beşinci nəticə göstərdim. Dağıstanda təşkil olunan beynəlxalq yarışda isə çempion olmuşam. Ən böyük uğurum isə hərbçilər arasında təşkil olunan 33-cü dünya çempionatında olub. Bu yarışda qadınlar arasında Azərbaycana ilk qızıl medalı 65 kq çəki dərəcəsində mən qazandırdım.

***- Qarşıda sizi hansı yarışlar gözləyir?***

- İyulun 30-dan avqustun 5-dək İtaliyanın paytaxtı Romada gənclər arasında Avropa çempionatı təşkil olunacaq. Bu yarışda da 65 kq çəki dərəcəsində mübarizə aparacağam. Artıq bu yarışın hazırlıqlarına başlamışıq. Qitə birinciliyində mükafatçılar sırasında yer almaq üçün bütün bacarığımı nümayiş etdirəcəyəm.

***- Qeyd etdiyin kimi, 65 kq çəki dərəcəsində güləşirsiniz. Bu çəkidə əsas rəqibləriniz kimlərdir?***

- Gənclər arasında elə də ciddi bir rəqibim yoxdur. Böyüklərdə isə əsas rəqibim Elis Monolovadır. Düzünü desəm, hələ onunla güləşməmişəm. Lakin belə bir imkan olarsa, bütün bacarığımla ondan zəif olmadığımı nümayiş etdirərəm.

***- Ailədə neçə uşaqsınız?***

- 4 uşağıq. Məndən başqa 1 bacım və 2 qardaşım var. Böyük qardaşım İmişlidə polis işləyir. Bacım Təfəkkür Universitetini bitirib.

***- Bəs, qardaşlarının sizin idmanla məşğul olmağına münasibəti necədir?***

- Balaca qardaşım hərdən atama deyir ki, mənim qızım olsa, qoymaram idmanla məşğul olsun. Atam da zarafatla cavab verir ki, öz qızın olanda qoymazsan. Mən öz qızıma çox inanıram.

***- Adətən, çəki problemi idmançıların həssas nöqtəsi olur. Bəs sizdə çəki salma problemi olurmu?***

- Deməzdim ki, problem olur. Əvvəllər yarışlara görə çəki salırdım. Hətta elə bir vaxt olub ki, Avropa və dünya çempionatlarına görə 14 kq çəki salmışam. Lakin indi çəki salmıram. Hazırda çəkim 64 kq 200 qramdır. Mən də yarışlarda 65 kq çəkidə güləşirəm. Əgər lazım olarsa 62 kq çəkidə də mübarizə apraram. Amma heç vaxt birdən-birə 7-8 kq çəki salmağı məsləhət görmürəm. Düzdür, 1-2 kq çəki salmaq olar, amma daha artığı məsləhətli deyil. İdmançı yarışda özünü yaxşı tərəfdən göstərə bilmir. Bu da yarış vaxtı öz mənfi təsirini göstərir.

***- Kumiriniz varmı?***

- Qadınlardan Mariya Stadnik, kişilərdən isə Hacı Əliyevə pərəstiş edirəm. Onlar bu idman növündə öz sözlərini demiş idmançılardırlar. Mən də gələcək karyeramı onlar kimi uğurla davam etdirmək istəyirəm.



***- İdmançı kimi arzunuz nədir?***

- Təbii ki, hər bir idmançı kimi, mənim də arzum Olimpiya Oyunlarında fəxri kürsünün ən yüksək pilləsində yer alaraq bayrağımızı yüksəklərə qaldırmaq, dünya, Avropa çempionatlarında qalib olmaqdır. Bu arzumu həyata keçirmək üçün hər gün böyük səylə çalışıram. Hər səhər məşqə ilk günkü kimi, eyni həyəcanla gedirəm. Bu təkcə mənim yox bütün idmançıların arzusudur. Bəzən idmançı məğlub olanda ona müəyyən təziqlər olur. Amma həmin idmançının çempion olmasını özündən çox heç kim istəyə bilməz.

***- İdmançı karyeranı başa vurduqdan sonra hansı işlə məşğul olmağı düşünürsünüz?***

- Hələ ki, güləşirəm. İdmançının ən böyük problemi zədə ilə bağlıdır. Yəqin ki, zədə problemim uzun müddət idmançı kimi fəaliyyət göstərəcəyəm. Əgər karyeramı başa vursam, Müdafiə Nazirliyində çalışmağı çox istərdim. Bu sahəyə çox böyük rəğbətim var. Əgər bu mümkün olmasa, idman zalı açıb, uşaq və gənclərin idmanla məşğul olmasına öz töhfəmi verərəm.

*Azər Əlizadə*

# DÜNYA idmanı





## Roje Federer nədən narazıdır?

"Böyük dəbilqə" turnirinin 20 qat qalibi, isveçrəli tanınmış tennisçi dopinqlə bağlı idmançıların tez-tez yoxlanılmasına münasibət bildirib.

"Son ayda məni ən azı 7 dəfə dopinqə görə yoxlayıblar. Həm sidik, həm də qandan analizlər götürülüb. Ştutqartda, Qallda, hətta İsveçrədə yaşadığım kənd evində. Yarışlar olmayan müddətdə də yoxlanılmışam. Dubayda yaşadığım 15 ildə isə belə bir şeylə rastlaşmamışam. Bu da mənə təəccüblü gəlir.

Düşünürəm ki, WADA-da hər şey yüksək səviyyədə olmalıdır və buradakı maliyyə problemlərinin cəzasını idmançılar çəkməməlidirlər. Əsası da odur ki, qurumda işləyənlər peşəkar olsunlar və idmançılarla cinayətkar kimi rəftar etməsinlər".



## Rəqib ciddi yoxlanılacaq

Boks üzrə ağır çəki dərəcəsində WBA, IBF, WBO və IBO versiyaları üzrə dünya çempionu Antoni Çoşuanın promouteri Eddi Hirn qarşıdakı döyüşlə bağlı fikirlərini bölüşüb.

Boksçunun promouteri Aleksandr Povetkinin WADA tərəfindən ciddi yoxlanılacağını deyib.

"Povetkini WADA ciddi yoxlayacaq. Biz bunu bütün rəqiblərimizlə döyüşdən 16 həftə əvvəl edirik və bunun üçün 50 min dollar vəsait ödəyirik. Dopinq testləri döyüş başlamamışdan əvvəl keçiriləcək".

Rusiyalı boksçu Aleksandr Povetkinin komandası isə dopinqlə bağlı yoxlanılma şərtini qəbul edib.

Qeyd edək ki, rusiyalı boksçu 2016-cı ildə dopinq testindən keçə bilmyib və buna görə onun Deontey Uaylderlə döyüşü təxirə salınıb.

## Lebron Ceyms seçimini etdi



Dünya şöhrətli basketbolçu Karim Abdul-Cabbar "Leykers" klubunun tezliklə favorit komandaya çevriləcəyini deyib. O, bunun səbəbini azad agent statusu alan Lebron Ceymsin adıçəkilən kluba keçidi ilə əlaqələndirib.

Qeyd edək ki, Kərim Abdul Cabbar da Kaliforniyanın "Leykers" klubunda oynayır.

"İnanıram ki, "Leykers" klubunun azarkeşləri çox sevinəcəklər. Mecik Consonu buna görə təbrik edirəm. Komandamız tezliklə favorit olacaq. San-Antoniodan cavab gözləyirik", - deyə tanınmış basketbolçu qeyd edib.

Məlumat üçün bildirək ki, Lebron Ceyms "Leykers" klubunun heyətində ilk oyununu sentyabrın 30-da keçirəcək.

## "Kimə məşqçi lazımdırsa, zəng etsin"

Uimbldon turnirinin 2 qat çempionu Endi Murrey bu dəfəki yarışda iştirak etməkdən imtina edib.

Tanınmış tennisçi bunun səbəbini belə izah edib: "Mənə göstərdiyiniz dəstəyə görə hər birinizə minnətdaram. Mənə ümid bəsləyən azarkeşlərimdən üzr istəyirəm.

Bu dəfə Uimbldon turnirində iştirak etməyəcəyəm. Özümü gələn dəfəki yarışa hazırlayacağam. Kimə məşqçi lazımdırsa, zəng edə bilər".

## "Uimbldon" turniri start götürdü

Tennisdə mövsümün üçüncü "Böyük dəbilqə" yarışı olan "Uimbldon" turniri start götürüb.

Kişilərdə turnirin son çempionu Roje Federer ilk turda Duşan Layoviçlə qarşılaşıb. Dünyanın bir nömrəsi Rafael Nadalın ilk rəqibi Dudi Sela olacaq. Novak Cokoviç isə Tennis Sandqrenlə münasibətlərinə aydınlıq gətirəcək.

Qadınlarda birinci turda WTA reytinqinin lideri Simona Halep Kurumi Nara, "Australian Open"in qalibi Karolin Voznyaçki Varvara Lepçenko, Serena Uilyams isə Aranta Rus ilə qarşılaşacaq.

Qeyd edək ki, "Uimbldon" turniri iyulun 15-dək davam edəcək.

## Məşhur boksçu niyə ittiham olunur?

Böyük Floyd Meyvezer aliment ödəməməkdə ittiham olunur.

"BoxingScene" nəşrinin yazdığına görə, Floyd Meyvezerə 29 yaşlı Puris Farris tərəfindən ittiham irəli sürülüb. Qadın tanınmış boksçunu qızları Nalaninin tərbiyəsi üçün maddi yardım göstərmədiyi üçün məhkəməyə verib.

67 yaşlı Floyd Meyvezerin kiçik Meyvezer də daxil olmaqla 5 övladı var.

## Ronaldonu mat qoyan iranlı qapıçının kədərli həyat hekayəsi





Dünya çempionatının qrup mərhələsində oynanan Portuqaliya - İran matçında rəqib komandanın ulduzu və dünyanın ən yaxşılarından olan Kriştianu Ronaldonun penalti zərbəsini dəf edən İran milli komandasının qapıçısı Əlirza Beiranvandın həyat hekayəsi onu oxuyan hər kəsi göz yaşlarına qərq edir.

İranın Lorənstan şəhərində köçəri bir ailədə dünyaya göz açan Əlirza bir yandan ailəsinə yardım etmək üçün çobanlıq edərkən, digər tərəfdən dostları ilə futbol oynayıb. Atası Mürtəzanın təkidli etirazlarına



rəğmən, Əlirza 12 yaşında çox sevdiyi idman növü olan futbolla peşəkar şəkildə məşğul olmağa başlayıb.

DÇ-2018-dən əvvəl "The Guardian" nəşrinə müsahibə verən futbolçu atasının futbolda geyindiyi paltarları, hətta əlcəklərini cırdığını və yalın əllə oynamağa davam etdiyini bildirib.

Futbol karyerasına başlamaq üçün tək çarəni ailəsindən uzaqlaşmaqda görən Əlirza evdən qaçaraq paytaxt Tehrana gəlib. O, paytaxt klublarından birində cüzi pul qarşılığında oynamağa razı olub. Pulu və yatmağa yeri olmayan qapıçı bir müddət qaçqın düşərgəsində yaşayıb. Baş məşqçi Hüseyn Feyzin yardımı ilə bir xeyli də komanda yoldaşının evində qalıb. Daha sonra komanda yoldaşının atasının fabrikində və avtoyumada işə başlayıb.

Bir müddət sonra yenidən evsiz qalan futbolçu məscidlərdən birinə sığınıb. Bundan xəbər tutan məscidin səlahiyyətli şəxsləri onu buradan uzaqlaşdırıblar. Əlirza pizza restoranında işə düzəlib. Bir gün pizza restoranına gələn baş məşqçisinə xidmət etməkdən boyun qaçırdığı üçün müdiri tərəfindən işdən qovulub. Əlacsız qalan Əlirza Tehranın park və küçələrini təmizləmələ məşğul olub. Başqa bir komanda ilə məşqə çıxan qapıçı zədələnib və burdan da qovulub. "Naft" komandasından aldığı təklifdən qısa müddət sonra özünü göstərə bilən qapıçı İranın U-23 millisinə dəvət alıb.

Ronaldunun penaltisini dəf etdikdən sonra stadiondakı hər kəsin əksinə çox sakit davranan qapıçının etdiyi bu hərəkətin onun həyatda yaşadıqlarının yanında bir heç olduğu məlum olub.

"Red Bull" komandasının pilotu Maks Ferstappen Avstriya Qran- Prisinin qalibi olub.

Yürüşün bu mərhələsində ikinci yeri "Ferrari" komandasının pilotu Kimi Raykkonen, üçüncü yeri isə Sebastyan Fettel tutub.

Maks Ferstappen cari mövsümdə özünün birinci, karyerasında isə dördüncü dəfə qələbə qazanıb. "Mercedes" komandasının hər iki pilotu texniki problemlər üzündən yürüşü vaxtında əvvəl dayandırıblar.

## Avstriya Qran-Prisinin qalibi müəyyənləşib

Avstriya Qran-Prisi başa çatandan sonra Formula-1 dünya çempionatının ümumi hesabında Sebastyan Fettel liderlik edir. Onun aktivində 146 xal var. İkinci yeri tutan Luis Hamilton Fetteldən cəmi bir xal geri qalır. Aktivində 101 xal olan Kimi Raykkonen isə Valtteri Bottas və Daniel Rikkardonu geridə qoyaraq üçüncü yerə çıxıb.



Avstriya mərhələsindən sonra Konstruktorlar Kubokunda "Ferrari" liderlik edir. İkinci yeri "Mercedes", üçüncü yeri "Red Bull" komandaları tutur.

Şirvan Olimpiya İdman Kompleksinin direktoru İlham Səfərov və kompleksin kollektivi Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova, qardaşı

**Yavər Camalovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19